Azərbaycan Respublikasının Baş prokuroru yanında
Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

HÜQUQİ ŞƏXSLƏRİN CİNAYƏT MƏSULİYYƏTİ

METODİK VƏSAİT

Bakı-2020

HÜQUQİ ŞƏXSLƏRİN CİNAYƏT MƏSULİYYƏTİ

METODİK VƏSAİT

Azərbaycan Respublikasının Baş prokuroru II dərəcəli dövlət ədliyyə müşaviri cənab Kamran Əliyevin tövsiyəsinə əsasən hazırlanmışdır.

Metodik vəsaitin hazırlanmasına rəhbərlik etmişdir:

Nazim Rəcəbov Azərbaycan Respublikası Baş prokurorunun müavini Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri

Vəsaitin hazırlanmasına məsul struktur qurum:

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsi

Müəllif:

Elşən Orucov Təşkilati və informasiya təminatı idarəsinin prokuroru vəzifəsini icra edən, III dərəcəli hüquqşünas

Korrektor:

Ziya Novruzov İdarənin məsləhətçisi

Kompüter tərtibatı:

Şamxal Dolxanov İdarənin mütəxəssisi

© Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.



“Sahibkarlar üçün əsas məsələ düzgün qaydaların tətbiq edilməsidir. Bu istiqamətdə dövlət siyasəti birmənalıdır, bütün sahələrdə, o cümlədən maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir.”

Azərbaycan Respublikasının Prezidenti cənab
İlham Əliyevin Qazaxda əhəng zavodunun
açılışında etdiyi çıxışdan

03.03.2020

MÜNDƏRİCAT

	Giriş	**3**
Fəsil 1.	Hüquqi şəxslərin məsuliyyəti institutu. Beynəlxalq təcrübədə hüquqi şəxslərin məsuliyyətinin növləri. Azərbaycan modeli	**8**
Fəsil 2.	Milli qanunvericiliyə əsasən hüquqi şəxsin anlayışı və onun növləri. Hüquqi şəxs cinayət və mülki hüququn subyekti kimi	**20**
Fəsil 3.	Hüquqi şəxslərin inzibati məsuliyyəti. Hüquqi şəxslər inzibati və cinayət hüququnun subyekti kimi	**23**
Fəsil 4.	Hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi əsasları və şərtləri. Hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsi	**30**
Fəsil 5.	Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi xarakterli tədbirlərin növləri	**33**
Fəsil 6.	Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri	**48**
Fəsil 7.	Hüquqi şəxslərin məsuliyyətə cəlb olunması sahəsində mövcud təcrübə və təkliflər.....	**72**

GİRİŞ

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin təşəbbüs və rəhbərliyi ilə aparılan uğurlu iqtisadi islahatlar ölkə iqtisadiyyatının əhəmiyyətli dərəcədə dirçəlməsinə, sahibkarlıq subyektləri üçün əlverişli biznes və bazar mühitinin yaranmasına zəmin yaratmışdır. Görülmüş belə tədbirlər fonunda rəqabət imkanları genişlənmiş, inhisarçılıq və möhtəkirlik kimi neqativ amillərə qarşı barışmaz mövqe sərgilənmişdir.

İqtisadi sahədə görülmüş işlər çərçivəsində sahibkarların hüquq-



Ölkə rəhbərliyi tərəfindən aparılmış məqsədyönlü islahatların məntiqi nəticəsi olaraq Azərbaycan son illərdə dünyada iqtisadi artım tempinə görə ölkələr arasında ön sıralarda qərar tutmuşdur. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlərin qeyri-neft sektorunun inkişafına xərclənməsi nəticəsində regionlarda infrastrukturun modernləşdirilməsi, əhalinin sosial rifah səviyyəsinin yaxşılaşdırılması təmin olunmuş, strateji valyuta ehtiyatları yaradılmışdır.

larının etibarlı müdafiəsinin təmin edilməsi, onların fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması məqsədilə də zəruri

tədbirlər həyata keçirilmişdir. Bu cür tədbirlərdən biri kimi "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" 20 oktyabr 2015-ci il tarixli Azərbaycan Respublikasının Qanunu qəbul edilərək, bu sahədə aparılan yoxlamalar 2021-ci il yanvarın 1-dək dayandırılmışdır.

İqtisadi sahədə aparılan islahatların, hüquqi müstəvidən dəstəklənməsi məqsədilə qanunvericilikdə də mühüm dəyişikliklər edilmiş, hüquqi şəxslərin qeydiyyat şərtləri asanlaşdırılmış, bu isə öz növbəsində onların sayının artmasına, fəaliyyət dairələrinin genişlənməsinə səbəb olmuşdur.

Qeyd edilməlidir ki, müasir dövr iqtisadiyyatını onun əsas subyektlərindən biri hesab olunan hüquqi şəxslərin mövcudluğundan kənar təsəvvür etmək mümkün deyildir. Hüquqi şəxslərin iqtisadi sahədə müstəsna rolu, onların fəaliyyət üzərində qanunvericilikdə nəzərdə tutulmuş hallarda nəzarət mexanizminin mövcud olmasını zəruri edir. Belə ki, beynəlxalq təcrübə göstərir ki, hüquqi şəxslər bir sıra hallarda müxtəlif növ cinayətlərin, o cümlədən, xüsusi ictimai təhlükəliliyi ilə seçilən korrupsiya cinayətlərinin, digər transmilli və mütəşəkkil cinayətlərin törədilməsində istifadə edilirlər. Bu tendensiya "hüquqi şəxslərin məsuliyyəti" institutunun yaranmasını, həmin institutun ölkələrin milli qanunvericiliklərinə implementasiya edilməsini şərtləndirmişdir.

Hüquqi şəxslərin cinayət məsuliyyəti institutu ilk dəfə anqlosakson (adət hüququ) hüquq sistemi mövcud olan ölkələrdə tətbiq edilməyə başlanmış, hələ XIX əsrdə bu sistemə daxil olan ölkələrdə bir-birindən müstəqil şəkildə 2 fərqli nəzəriyyə - ABŞ-da subsidiar məsuliyyət nəzəriyyəsi və Böyük Briyaniyada identifikasiya nəzəriyyəsi inkişaf etməyə başlamışdır.

XX əsrin sonlarına doğru hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunması sahəsində ciddi dönüş yaranmış və demək olar ki, əksər ölkələr hüquqi şəxslərin cinayət məsuliyyəti barədə normaları öz qanunvericiliklərinə daxil etmişlər.

Milli qanunvericiliyin beynəlxalq hüquqi standartların tələblərinə uyğunlaşdırılması, xarici ölkələrin mütərəqqi təcrübəsinin öyrənilərək milli qanunvericiliyə daxil edilməsi çərçivəsində həyata keçirilən tədbirlərdən biri kimi hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilmə-

sinin mümkünlüyünü, müvafiq icraatın prosessual qayda və şərtlərini nəzərdə tutan normalar cinayət və cinayət-prosessual qanunvericiliyə daxil edilmişdir. Belə ki, 2012 və 2016-cı il tarixli Azərbaycan Respublikası Qanunları ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə "Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi xarakterli tədbirlər", Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə isə "Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat" fəsilləri əlavə edilmişdir. Göründüyü kimi, "hüquqi şəxslərin cinayət məsuliyyəti" institutu milli qanunvericilik üçün yeni və tədqiq olunmamış sahədir. Bu isə təcrübədə müvafiq normaların tətbiqi ilə bağlı çətinliklərin, fikir ayrılıqlarının yaranmasına səbəb olur.


Odur ki, "hüquqi şəxlərin cinayət məsuliyyəti" institutunun qanunverici və praktik müstəvidə təhlil olunaraq, mövcud problemlərin aşkar olunması, adekvat həll yollarının irəli sürülməsi zəruridir.

FƏSİL 1. Hüquqi şəxslərin məsuliyyəti institutu. Beynəlxalq təcrübədə hüquqi şəxslərin məsuliyyətinin növləri. Azərbaycan modeli

Hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyü barədə fikir və nəzəriyyələr hələ XIX əsrdən etibarən geniş şəkildə səsləndirilməyə başlanmışdır. Kontinental hüquq sisteminə daxil olan Niderland isə bu baxımdan daha qətiyyətli və mütərəqqi addım atmaqla 1950-ci ildə hüquqi şəxslərin məsuliyyəti institutunu öz cinayət qanunvericiliyinə daxil etmişdir.

XX əsrin sonlarında isə hüquqi şəxslərin cinayət məsuliyyəti institutu daha da təkmilləşmiş və bir çox ölkələr bu insitutu öz cinayət qanunvericiliklərinə daxil etmişlər. Son 30 ildə isə hüquqi şəxslərin cinayət məsuliyyəti institutu əksər Avropa ölkələrinin qanunvericiliklərinə daxil edilməklə, hüquqi şəxslərin onların vəzifəli şəxsləri tərəfindən törədilmiş cinayət əməllərinə görə məsuliyyətə cəlb edilməsinin mümkünlüyü tanınmışdır.

Buna baxmayaraq, hüquqi şəxslərin cinayətin subyekti olması fikrini inkar edən hüquq sistemləri də mövcuddur. Hüquqi şəxslərin cinayət hüququnun müstəqil subyekti olmasını inkar edənlər öz fikirlərini, hüquqi şəxslərin cansız varlıq olmaları, şüur və insani təxəyyülə malik olmamaları səbəbindən hər hansı hərəkətə görə məsuliyyət daşımalarının ağlabatan olmaması ilə əsaslandırırlar. Bəzi elmi mənbələrdə isə belə hesab edilir ki, hüquqi şəxslərin məsuliyyətə cəlb olunması zamanı, onların hər hansı əmələ görə bilavasitə təqsirkar olub-olmamalarının müəyyən edilməsi əhəmiyyət daşımır, bu zaman məqsəd törədilmiş əmələ görə adekvat təsir tədbirinin tətbiq olunmasıdır. Hüquqi şəxsin məsuliyyətə cəlb edilməsi ilə əlaqədar həyata keçirilən icraatın məqsədi isə hüquqi şəxsin təqsirinin müəyyən edilməsi yox, hüquq pozuntusunun aşkar edilərək təsir tədbiqinin təmin edilməsidir.





Qeyd olunmalıdır ki, hüquqi şəxslərin məsuliyyətə cəlb olunmasının mümkünlüyü və müvafiq əsaslar mövcud olduğu hallarda zəruriliyi ilə bağlı müddəalar bir sıra beynəlxalq əhəmiyyətli konvensiya və sənədlərdə də öz əksini tapmışdır. Belə ki, Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının 26-cı maddəsi hüquqi şəxslərin məsuliyyəti məsələsinə həsr olunmuşdur. Həmin maddəyə əsasən:

1) Hər bir İştirakçı dövlət, hüquqi şəxslərin bu Konvensiyaya uyğun olaraq tanınmış hüquqpozmaların törədilməsində iştirakına görə məsuliyyət müəyyən edilməsi üçün öz hüquq prinsiplərinə uyğun olaraq lazım gələn tədbirləri görür.

2) İştirakçı dövlətin hüquq prinsiplərinə riayət edilməsi şərtilə, hüquqi şəxslər üçün **cinayət, mülki-hüquqi və ya inzibati məsuliyyət** müəyyən oluna bilər.

Hüquqi şəxslər üçün **cinayət, mülki-hüquqi və ya inzibati məsuliyyət** müəyyən oluna bilər.

3) Belə məsuliyyətin müəyyən edilməsi bu hüquqpozmaları törətmiş fiziki şəxslərin cinayət məsuliyyətinə xələl gətirmir.

Bundan əlavə, Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyasında hüquqi şəxslərin məsuliyyəti məsələsinə yer verilmişdir.Belə ki, həmin Konvensiyaya əsasən[1] :

1) Konvensiyaya uyğun olaraq tövsif edilmiş cinayət hüquqpozmalarının ağırlığını nəzərə alaraq, hər bir Tərəf, konvensiyanın 2-14-cü maddələrinə uyğun olaraq tövsif edilmiş həmin cinayət hüquqpozmalarına münasibətdə **səmərəli, mütənasib və çəkindirici sanksiya və tədbirlər**, o cümlədən, əgər bu cinayət hüquqpozmaları fiziki şəxslər tərəfindən törədilmiş-

[1] Avropa Şurasının “Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında” Konvensiyasının 18-ci maddəsi

Məsuliyyətə cəlb edilmiş hüquqi şəxslər barəsində səmərəli, mütənasib və çəkindirici cinayət və ya qeyri-cinayət xarakterli sanksiyalar, o cümlədən maliyyə sanksiyaları tətbiq edilməlidir.

dirsə, ekstradisiya ilə nəticələnə biləcək azadlıqdan məhrum etmə sanksiyaları nəzərdə tutur.

2) Hər bir Tərəf təmin edir ki, 18-ci maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq məsuliyyətə cəlb edilmiş hüquqi şəxslər barəsində **səmərəli, mütənasib və çəkindirici** cinayət və ya qeyri-cinayət xarakterli sanksiyalar, o cümlədən maliyyə sanksiyaları tətbiq edilsin.

3) Hər bir Tərəf, cinayətin törədilməsində istifadə edilən vasitələri və bu Konvensiyaya uyğun olaraq tövsif edilmiş cinayət hüquqpozmalarından əldə edilən gəlirləri və ya dəyəri bu cür gəlirlərə müqabil olan əmlakı **müsadirə etmək və ya digər qaydada götürmək** hüququ ilə özünü təmin etmək üçün lazım ola biləcək qanunvericilik və digər tədbirlər görür.

Hesab edirik ki, milli qanunvericilik həm göstərilən beynəlxalq sənədlərin, həm də hamılıqla qəbul olunmuş beynəlxalq standartların tələblərinə tam cavab verir.

Beynəlxalq təcrübədə hüquqi şəxslərin hüquqpozmalara görə məsuliyyətə cəlb edilməsinin vahid təcrübəsi olmasa da, müxtəlif ölkələrin qanunvericiliklərinin təhlilinə əsasən hüquqi şəxslərin məsuliyyətinin 4 əsas növünü qruplaşdırmaq mümkündür:

1) cinayət məsuliyyəti
2) kvazi-cinayət məsuliyyəti
3) cinayətlərə görə inzibati məsuliyyət
4) inzibati xətalara görə inzibati məsuliyyət

Beynəlxalq təcrübədə bu növlərin hamısından istifadə olunsa da, 4-cü formanın bir sıra beynəlxalq standartlara cavab verməməsi barədə

fikirlər mövcuddur. Həmin fikirlər onunla əsaslandırılır ki, bəzi beynəlxalq sənədlər, o cümlədən konvensiyalar korrupsiya və rüşvətxorluq kimi cinayətlərin müvafiq ölkələrin cinayət qanunvericiliklərində öz əksini tapmasını və cinayət hüquqi mənada cəzalandırılmasını məcburi hesab edir. 4-cü formanı tətbiq edən ölkələrdə isə korrupsiya və rüşvətxorluq cinayətlərinin törədilməsində istifadə olunması müəyyən edilmiş hüquqi şəxslərin cinayət hüquqi baxımdan məsuliyyətə cəlb olunması mümkün olmur, nəticədə isə beynəlxalq sənəd və ya konvensiyanın tələbləri pozulmuş olur. Digər 3 formanın hər hansı birinə üstünlük verilmir. Belə ki, korrupsiyanın qarşısının alınması sahəsində mötəbər konvensiya və digər beynəlxalq sənədlər hüquqi şəxsin məsuliyyət məsələsinin həlli zamanı əsas diqqətin hüquqi şəxs barəsində tətbiq olunacaq tədbirin adekvat, effektiv və səmərəli olmasına yönəldilməli olduğunu bəyan edir. Buna baxmayaraq, beynəlxalq təcrübə göstərir ki, hüquqi şəxslərin fəaliyyəti üzərində effektiv nəzarətin təmin edilməsi məqsədilə ən uyğun sistemlər cinayət və kvazi-cinayət məsuliyyətidir. Belə ki, cinayət işlərinin istintaqı zamanı istintaq orqanları daha geniş imkan və səlahiyyətlərə, daha uzun araşdırma müddətlərinə malik olurlar, bu isə öz növbəsində iş üzrə əhəmiyyət kəsb edən halların müəyyən edilməsini asanlaşdırır və tezləşdirir. Xüsusilə də, mütəşəkkil cinayətlərin istintaqı zamanı cinayət işləri üzrə hüquqi yardım göstərilməsi barədə müqavilələrdən irəli gələn imkanlardan istifadə etməklə, müvafiq halların araşdırılması mümkün olsa da, inzibati sahədə bu cür müqavilələrin sayının azlığı hüquqi şəxslərin inzibati qaydada məsuliyyətə cəlb olunması zamanı beynəlxalq vasitələrdən istifadə imkanını məhdudlaşdırır. Bu baxımdan hüquqi şəxslərin cinayət hüquqpozmalarına görə cinayət prosesi çərçivəsində məsuliyyətə cəlb edilmələrinin üstünlüklərini aşağıdakı qaydada qruplaşdırmaq mümkündür:

1. İstintaq hərəkətlərinin və məcburetmə tədbirlərinin daha geniş tətbiqi imkanları;
2. Qarşılıqlı hüquqi yardımın göstərilməsinin daha geniş imkanları;
3. Daha uzun müddətlər (araşdırma və cəlbetmə)

Milli qanunvericilikdə hüquqi şəxslərin kvazi-cinayət məsuliyyəti institutundan istifadə olunmuşdur.

Azərbaycan Respublikası qanunvericiliyində hüquqi şəxslərin kvazi-cinayət məsuliyyəti institutuna üstünlük verilmişdir. Beynəlxalq təcrübəyə əsasən hüquqi şəxslərin məsuliyyətə cəlb olunmasının əsasları, hüquqi şəxs barəsində tətbiq olunacaq "cəzaların" növləri, eləcə də müvafiq proses cinayət hüquqi baxımdan nizamlanırsa, (müvafiq olaraq cinayət və cinayət-prosessual qanunvericiliklərdə) həmin sistem kvazi-cinayət məsuliyyəti sistemi hesab olunur. Belə ki, latın dilindən tərcümə edildikdə "quasi" sözü "sanki, guya" mənasını verir.

Qeyd edilməlidir ki, milli qanunvericilikdə öz əksini tapmış hüquqi şəxslərin cinayət məsuliyyəti institutu Latviya qanunvericiliyində əks olunmuş hüquqi şəxslərin cinayət məsuliyyəti institutu ilə oxşar cəhətlərə malikdir.





Belə ki, Latviya Cinayət Məcəlləsi hüquqi şəxslərin cinayət məsuliyyətinə dair ayrıca fəsil müəyyən etmiş və hüquqi şəxslər barəsində tətbiq olunması mümkün 4 növ məcburiyyət tədbiri müəyyən etmişdir. ("Coercive Measures Applicable to Legal Persons" Chapter 8 Criminal Law of Latvia). Göstərilən faktorlar Latviya cinayət qanunvericiliyi və milli qanunvericiliyi yaxınlaşdırır. Belə ki, hər iki ölkənin qanunvericiliyi hüquqi şəxslərin cinayət məsuliyyəti üçün ayrıca fəsil nəzərdə tutmuşdur. Bundan əlavə hər iki ölkənin qanunvericiliyində hüquqi şəxslər barəsində cinayət hüquqpozmalarına görə "cəza"nın yox, müvafiq olaraq "cinayət-hüquqi tədbirlər"in və "məcburiyyət tədbirləri"nin tətbiqi mümkün hesab edilmişdir. Bu

baxımdan həm Latviya, həm də Azərbaycan Respublikası qanunvericiliyində hüquqi şəxslərin "kvazi-cinayət məsuliyyəti" növündən istifadə olunmuşdur. "Hüquqi şəxslərin kvazi-cinayət məsuliyyəti" növündən istifadə edən digər ölkə isə Ukraynadır. Hüquqi şəxslərin cinayət məsuliyyəti institutu Ukrayna qanunvericiliyi üçün də yenidir. Ukrayna qanunvericiliyinə əsasən hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının əsasları cinayət, müvafiq proses isə cinayət-prosessual qanunvericiliklə nizamlanır.

Qeyd olunmalıdır ki, milli qanunvericilik hüquqi şəxslərin inzibati məsuliyyətin subyekti kimi çıxış edə bilməsini də mümkün hesab etmişdir. Lakin milli qanunvericilik hüquqi şəxslərin cinayət hüquqpozmalarına görə inzibati qaydada məsuliyyət daşımasını istisna edir. Belə ki, cinayət qanunvericiliyi konkret cinayət hüquqpozmalarının dairəsini müəyyən etməklə, həmin hüquqpozmalara görə hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqini mümkün hesab edir. Milli qanunvericiliyə əsasən hüquqi şəxslər inzibati xarakterli hüquqpozmalara görə inzibati məsuliyyət daşıyırlar. Bu cür hüquqpozmalar cinayət hüquqpozmalarına münasibətdə daha yüngül xarakter daşıyır və ictimai təhlükəli hesab olunmurlar. Hesab edirik ki, milli qanunvericilikdə hüquqi şəxslərin həm cinayət, həm də inzibati məsuliyyətə cəlb olunmasının mümkünlüyünün nəzərdə tutulması təqdirəlayiq haldır. Belə ki, milli qanunvericilikdə nəzərdə tutulmuş sistem hüquqi şəxslərin yol verilmiş hüquq pozuntusunun xarakter və ictimai təhlükəlilik dərəcəsinə uyğun şəkildə məsuliyyətə cəlb olunmalarına imkan verir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin qanun qarşısında bərabərlik prinsipini müəyyən edən 7-ci maddəsinə əsasən hüquqi şəxslər mülkiyyət formasından, yerləşdiyi yerdən, təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq inzibati məsuliyyətə cəlb edilirlər.

Hüquqi şəxslər mülkiyyət formasından, yerləşdiyi yerdən, təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq inzibati məsuliyyətə cəlb edilirlər.

Göründüyü kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsi hüquqi şəxslərin həmin məcəllə ilə nəzərdə tutulmuş müəyyən dairəsinin məsuliyyətə cəlb edilməsinin mümkünlüyünü nəzərdə tutsa da, inzibati qanunvericilik müvafiq əsaslar olduğu halda hüquqi şəxslərin mülkiyyət formasından, yerləşdiyi yerdən, təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq məsuliyyətə cəlb edilməsinin mümkünlüyünü müəyyən etmişdir. Hüquqi şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi zamanı nəzərə alınmalı olan hallar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulmuşdur.[2]



İqtisadi əməkdaşlıq sahəsində fəaliyyət göstərən mötəbər beynəlxalq təşkilatlardan biri hesab olunan OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) Mərkəzi Asiya ölkələrinin qanunvericiliklərində əks olunmuş hüquqi şəxslərin məsuliyyəti institutlarını təhlil etməklə, "Şərqi Avropa və Mərkəzi Asiya ölkələrində hüquqi şəxslərin məsuliyyəti" adlı hesabatında onların 4 növünü fərqləndirmişdir[3] :

1. **İdentifikasiya modeli-** Bu model hüquqpozmanın yalnız həmin hüquqi şəxsə nəzarət edən (şirkətin rəhbərliyi və ya şirkəti təmsil etmək səlahiyyətinə malik olan) fiziki şəxs tərəfindən törədildiyi halda hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını mümkün hesab edir.
2. **Geniş identifikasiya modeli-** İdentifikasiya modelindən fərqli olaraq bu model hüquqpozmanın, həmçinin hüquqi şəxsə nəzarət edən fiziki şəxs tərəfindən öz işçilərinə nəzarətin

[2] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 18-ci maddəsi
[3] "Liability of legal persons for corruption in eastern and central Asia" OECD 2015

həyata keçirilməməsi səbəbindən törədildiyi hallarda hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını mümkün hesab edir.

3. **Subsidiar məsuliyyət modeli-** Bu model hüquqpozmanın hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması məqsədilə öz səlahiyyətləri çərçivəsində hərəkət edən istənilən işçi tərəfindən törədildiyi hallarda hüquqi şəxsin məsuliyyətə cəlb olunmasını mümkün hesab edir.
4. **Təşkilati model-** Bu model çərçivəsində hüquqi şəxsin məsuliyyəti korporativ mədəniyyətdə çatışmazlıq vasitəsi ilə müəyyən olunur.

OECD tərəfindən tərtib olunmuş hesabatda müvafiq modellərdən istifadə edən ölkələr aşağıdakı kimi qruplaşdırılmışdır :

İdentifikasiya modelindən istifadə edən ölkələr	Geniş İdentifikasiya modelindən istifadə edən ölkələr	Subsidiar modeldən istifadə edən ölkələr	Təşkilati modeldən istifadə edən ölkələr
Moldova	Azərbaycan	Rusiya	Rumıniya
Estoniya	Gürcüstan	Bolqarıstan	
	Latviya		
	Litva		
	Ukrayna		

Cədvəldən də göründüyü kimi Azərbaycan geniş identifikasiya modelindən istifadə edən ölkələr sırasına aid edilmişdir. Hesab edirik ki, milli qanunvericilikdə istifadə olunmuş model ən uğurlu və effektiv modeldir. Belə ki, həmin model hüquqi şəxslərin daha geniş subyektlər dairəsi tərəfindən törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb olunması imkanını təmin edir. Bu isə öz növbəsində hüquqi şəxslərin fəaliyyəti üzərində daha effektiv nəzarətin həyata keçirilməsinə imkan yaradır.

Yekdilliklə qəbul olunmuş prinsipə əsasən fiziki şəxs tərəfindən törədilmiş cinayət hüquqi şəxsin maraqlarının qorunmasına, hüquqi şəxsin mənafeyinə xidmət etdikdə, onun xeyrinə və ya hüquqi şəxsin adından törədildikdə hüquqi şəxs məsuliyyətə cəlb oluna bilər.

Beynəlxalq təcrübəyə əsasən fiziki şəxslərin törətdikləri cinayətlərə görə hüquqi şəxslərin məsuliyyəti məsələsi həll edilərkən bir sıra meyarlar nəzərə alınmalıdır. Belə ki, müxtəlif modellərdən və formalardan istifadə edilməsinə baxmayaraq, əksər ölkələrdə fiziki şəxs tərəfindən törədilmiş cinayət hüquqi şəxsin maraqlarının qorunmasına, hüquqi şəxsin mənafeyinə xidmət etdikdə, onun xeyrinə və ya hüquqi şəxsin adından törədildikdə hüquqi şəxs məsuliyyətə cəlb oluna bilər (məsələn: şirkət rəhbəri hüquqi şəxsin əmlakının artırılması və ya satınalma kimi proseslərdə iştirakının təmin edilməsi məqsədilə vəzifəli şəxsə rüşvət verir). Bu baxımdan qeyd etmək mümkündür ki, beynəlxalq təcrübə hüquqi şəxsin məsuliyyət məsələsinin həlli zamanı fiziki şəxsin əməli ilə hüquqi şəxsin maraqları arasındakı əlaqənin müəyyən edilməsini tələb edir. Bu cür əlaqə müəyyən edilmədikdə isə hüquqi şəxsin məsuliyyəti istisna edilir və fiziki şəxs öz əməlinə görə fərdi qaydada məsuliyyətə cəlb edilir. Göstərilən tendensiya milli qanunvericilikdə də öz əksini tapmışdır. Belə ki, Azərbaycan Respublikası cinayət qanunvericiliyinə əsasən hüquqi şəxs fiziki şəxslər tərəfindən onun xeyrinə və ya maraqlarının qorunması üçün törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb edilə bilər. Hesab edirik ki, mövcud anlayış bir çox beynəlxalq standartlara cavab verir və özündə həm də hüquqi şəxsin adından törədilmiş cinayətlər məfhumunu ehtiva edir.

Əksər beynəlxalq standartlar fiziki və hüquqi şəxsin cinayət hüquqpozmalarına görə məsuliyyət məsələsinin bir-birindən asılı olmadan həll edilməsini tələb edir. (“principle of autonomous liability”- məsuliyyətin muxtariyyəti prinsipi) Həmin prinsipin tələbinə əsasən fiziki və hüquqi şəxslərin məsuliyyət mə-

principle of autonomous liability

fiziki və hüquqi şəxslərin məsuliyyəti ayrılıqda həll edilməlidir.

sələsi bir-birindən asılı olmadan həll edilməli, fiziki şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi hüquqi şəxsin, hüquqi şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi isə fiziki şəxsin məsuliyyətini istisna etməməlidir. Hesab edirik ki, milli qanunvericilik bu baxımdan beynəlxalq standartlara tam cavab verir. Belə ki, milli qanunvericilik hüquqi şəxslər barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiqini fiziki şəxsin cinayət məsuliyyətindən azad edilməsinin əsası kimi müəyyən etməmiş, eyni zamanda fiziki şəxs barəsində cinayət təqibinə xitam verilməsini hüquqi şəxs barəsində cinayət təqibinin həyata keçirilməsinə mane olmadığını təsbit etmişdir.

Qeyd olunmalıdır ki, beynəlxalq hüquqda cinayət hüquqpozmalarına görə hüquqi şəxslər barəsində tətbiq olunması mümkün cəza və ya digər hüquqi təsir tədbirlərinin konkret siyahısı müəyyən olunmamışdır. Lakin, Birləşmiş Millətlər Təşkilatının "Korrupsiya əleyhinə Konvensiyası"nın 26-cı maddəsinin 4-cü bəndinə, Avropa Şurasının "Korrupsiyaya görə cinayət hüquqi məsuliyyət barədə Konvensiyası"nın 19-cu maddəsinə əsasən korrupsiya cinayətlərinə görə cərimə və cinayət nəticəsində əldə edilmiş gəlirlərin müsadirəsi məcburi sanksiyalar kimi nəzərdə tutulmuşdur. Belə ki, Avropa Şurasının Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında Konvensiyasının 19.2-ci maddəsinə əsasən hər bir tərəf həmin konvensiyanın 18-ci maddənin 1-ci və 2-ci bəndlərinə uyğun olaraq məsuliyyətə cəlb edilmiş hüquqi şəxslər barəsində səmərəli, mütənasib və çəkindirici cinayət və ya qeyri-cinayət xarakterli sanksiyalar, o cümlədən maliyyə sanksiyaları tətbiq etməlidir. Həmin maddənin 3-cü bəndinə əsasən isə hər bir tərəf cinayətin törədilməsində istifadə edilən vasitələri və bu Konvensiyaya uyğun olaraq tövsif edilmiş cinayət hüquqpozmalarından əldə edilən gəlirləri və ya dəyəri bu cür gəlirlərə müqabil olan əmlakı müsadirə etmək və ya digər qaydada götürmək hüququ ilə özünü təmin etmək üçün lazım ola biləcək qanunverici və digər tədbirlər görür.

Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının 26-cı maddəsinin 4-cü bəndinə əsasən isə hər bir İştirakçı Dövlət bu maddəyə uyğun olaraq məsuliyyətə cəlb edilən hüquqi şəxslər barəsində səmərəli, proporsional və çəkindirici təsir göstərən cinayət və qeyri-cinayət, o cümlədən pul sanksiyalarının tətbiq olunmasını təmin edir. Buna baxmayaraq, beynəlxalq təcrübədə hüquqi şəxslər

barəsində cinayət hüquq pozmalarına görə həm cəzaların, həm də digər təsir tədbirlərinin tətbiq olunması təcrübəsi mövcuddur. Həmçinin, eyni növdən olan hüquqi təsir tədbirinin bəzi ölkələrdə cəza, bəzi ölkələrdə cinayət-hüquqi xarakterli tədbir qismində istifadə olunması hallarına da rast gəlinir. Hesab edirik ki, milli qanunvericilikdə istifadə olunmuş "cinayət-hüquqi xarakterli tədbir" anlayışı ən uyğun və adekvat anlayışdır. Belə ki, ümumi qəbul olunmuş fikrə əsasən cəza cinayət hüquqpozmalarına görə qanunvericiliklə müəyyən olunan məqsədlərə nail olmaq üçün tətbiq olunan cinayət-hüquqi xarakterli təsir tədbiridir. Milli qanunvericiliyə əsasən isə cəza cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur və şəxs barəsində həmin Məcəllə ilə müəyyən edilən məhrumiyyətlər yaradılmasından və ya onun hüquq və azadlıqlarının məhdudlaşdırılmasından ibarətdir. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Göründüyü kimi cəza təqsirli şəxsə tətbiq olunmalı və məhkumun islah olunması məqsədi daşımalıdır. Hüquqi şəxslərin məsuliyyəti isə onların təqsirlilik məsələsindən asılı olmadan həll edilməli və onlar barəsində tətbiq olunan tədbirlər islah yox çəkindiricilik məqsədi daşımalıdır. Belə ki, hüquqi şəxslər cansız məfhum olmaqla, şüura, müstəqil qərar vermə qabiliyyətinə, fiziki şəxslərin iştirakı olmadan cinayət törətmə, eləcə də, islah olunma mexanizminə malik deyildir. Bu baxımdan hüquqi şəxslər barəsində tətbiq olunan təsir tədbiri hüquq pozuntusundan çəkindirmə məqsədi daşımalıdır. Göstərilən faktorlar nəzərə alınmaqla milli qanunvericilikdə hüquqpozmalara görə hüquqi şəxslərə münasibətdə "cəza" terminindən yox, "cinayət-hüquqi xarakterli tədbir" terminindən istifadə olunmuşdur.

Beynəlxalq standartlar hüquqi şəxslər barəsində cinayət hüquqpozmalarına görə tətbiq olunan təsir tədbirlərinə görə digər hər hansı konkret tələb müəyyən etməmişdir. Lakin mövcud təcrübə göstərir ki, hüquqi şəxslərə münasibətdə tətbiq olunan təsir tədbirləri səmərəli, adekvat olmalı, hüquq pozuntusundan çəkindirmə keyfiyyətlərinə malik olmalıdır.

Qeyd edilməlidir ki, beynəlxalq təcrübədə hüquqi şəxslər barəsində ən geniş tətbiq olunan hüquqi təsir tədbiri cərimədir. Hüquqi şəxslərin

cinayət məsuliyyəti institutunu öz cinayət qanunvericiliyinə digər ölkələrlə müqayisədə daha tez daxil etmiş Niderlandın qanunvericiliyi də cinayət hüquqpozmalarına görə hüquqi şəxslər barəsində cərimənin tətbiqini mümkün hesab edir. Niderland qanunvericiliyinə əsasən hüquqpozmaya görə hüquqi şəxslər barəsində tətbiq olunacaq cərimənin məbləği, törədilmiş hüquqpozmanın xarakter və ağırlıq dərəcəsinə uyğun olaraq müəyyənləşdirilir və törədilmiş hər cinayətə görə 760000 avrodan artıq ola bilməz. Həmçinin, hüquqi şəxslər barəsində tətbiq olunan cərimənin yuxarı həddi fiziki şəxslər barəsində tətbiq olunan cərimənin yuxarı həddindən çoxdur. Bundan əlavə, Niderland qanunvericiliyi müvafiq əsaslar mövcud olduğu halda hüquqi şəxslər barəsində müsadirənin tətbiqini də mümkün hesab etmişdir. Niderland qanunvericiliyinə əsasən hüquqi şəxslər barəsində iqtisadi fəaliyyətin 1 ildən çox olmayaraq dayandırılması növündə cəzanın tətbiqi də mümkündür. Müqayisə üçün qeyd edək ki, Niderland qanunvericiliyində hüquqi şəxsin ləğvinin sanksiya qismində tətbiqi nəzərdə tutulmamışdır. Belə ki, Niderland qanunvericiliyinə əsasən hüquqi şəxsin ləğvi prokurorluq tərəfindən başlanan, ayrıca prosesdir.[4]


[4] Clifford Chance "Corporate liability in Europe"

FƏSİL 2. Milli qanunvericiliyə əsasən hüquqi şəxsin anlayışı və onun növləri. Hüquqi şəxs cinayət və mülki hüququn subyekti kimi

Azərbaycan Respublikasının Mülki Məcəlləsi hüquqi şəxslər üçün dəqiq anlayışı, hüquqi şəxslərin fəaliyyəti ilə əlaqədar əsas müddəaları, həmçinin, hüquqi şəxsin ləğvi qaydalarını müəyyən edir. Azərbaycan Respublikası Mülki Məcəlləsinə əsasən:

Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş **(1)**, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır **(2)**, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir **(3)**, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna **(4)** malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır. **(5)**[5]

Göründüyü kimi qanunvericilik hüquqi şəxslər üçün hərtərəfli və təkmil anlayış müəyyən etməklə, onun müstəqil fəaliyyəti üçün mümkünlülük şərtlərini də müəyyən edir. Mülki Məcəllədə hüquqi şəxslərin 3 növü fərqləndirilmişdir:[6]



Kommersiya hüquqi şəxsləri- Bu növdən olan hüquqi şəxslərin əsas məqsədi gəlir götürməkdir.

[5] Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 43-cü maddəsi
[6] Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 43.5-ci maddəsi

Qeyri-kommersiya hüquqi şəxsləri – Bu növdən olan hüquqi şəxslərin əsas məqsədi mənfəət götürməkdən ibarət deyil və götürülən mənfəət iştirakçılar arasında bölüşdürülmür.

Publik hüquqi şəxslər – Bu növdən olan hüquqi şəxslər ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olmaq məqsədilə yaradılırlar, fəaliyyətləri Mülki Məcəllə və "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.



Mülki və cinayət qanunvericiliklərinin müqayisə və təhlili göstərir ki, müvafiq əsaslar olduğu təqdirdə həm kommersiya, həm də qeyri-kommersiya hüquqi şəxsləri barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiq olunması mümkündür. Lakin qüvvədə olan Cinayət Məcəlləsinə əsasən dövlət, bələdiyyələr, həmçinin beynəlxalq təşkilatlar barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqinin mümkünlüyü müəyyən olunmamışdır. Qanunun mənasına görə göstərilən kateqoriyaya aid hüquqi şəxslərin fəaliyyətində cinayət məsuliyyəti yaradan pozuntular aşkar edildiyi təqdirdə, məsuliyyət fərdi xarakter daşımalı, yəni müvafiq pozuntuya yol vermiş şəxsə şamil olunmalıdır.

Qeyd olunmalıdır ki, publik hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqinin mümkünlüyünü bilavasitə nəzərdə tutan və ya qadağan edən norma cinayət qanunvericiliyi ilə təsbit olunmamışdır. Göstərilən məsələ ilə əlaqədar səmərəli hüquqi nəticə hasil etmək məqsədilə cinayət qanunvericiliyinin digər sahəvi qanunvericilik aktları ilə müqayisəli təhlili zəruridir.

“Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası qanununa əsasən publik hüquqi şəxs dövlət və bələdiyyə adından yaradılan, ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan, dövlət və ya bələdiyyə orqanı olmayan təşkilatdır. Göstərilən müddəa publik hüquqi şəxslərin dəqiq statusunu müəyyən etməklə, onları dövlət və ya bələdiyyə orqanı kateqoriyasından kənarda saxlayır. Qanunvericiliklə publik hüquqi şəxslər üçün müəyyən edilmiş status onlar barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiqini formal cəhətdən mümkün hesab etsə də, hesab edirik ki, nəzarət səhm zərfi dövlətə (bələdiyyəyə) məxsus hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) barəsində cinayət hüquqi tədbirlərin tətbiqi məqsədyönlü və səmərəli xarakter daşımır. Belə ki, son illərdə təhsil, tibb sahəsində fəaliyyət göstərməklə dövlət əhəmiyyətli funksiyaları yerinə yetirən, eləcə də, ümumi mənafeyə xidmət edən bir çox qurumlara publik hüquqi şəxs statusu verilmişdir. Həmin qəbildən olan publik hüquqi şəxslər barəsində isə cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş hər hansı təsir tədbirinin tətbiqi publik hüquqi şəxsin ümumi fəaliyyətinin keyfiyyətinə xələl gətirə və yaradılması zamanı qarşıya qoyulmuş mühüm vəzifələrin icrasına mane ola bilər. Bu səbəbdən belə hesab edirik ki, publik hüquqi şəxslər barəsində cinayət hüquqi tədbirlərin tətbiqini bilavasitə qadağan edən norma olmasa da, nəzarət səhm zərfi dövlətə (bələdiyyəyə) məxsus olan hüquqi şəxslər (o cümlədən publik hüquqi şəxslər) barəsində bu xarakterli tədbirlərin tətbiqi məqsədəmüvafiq deyil. Bu kateqoriyadan olan hüquqi şəxslərin vəzifəli şəxsləri tərəfindən qanun pozuntusuna yol verilməsi halları aşkar edildiyi təqdirdə isə, həmin fərdi qaydada məsuliyyətə cəlb olunmalıdırlar.

Belə hesab edirik ki, təcrübədə yaranmış anlaşılmazlıqların aradan qaldırılması məqsədilə barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiq olunmasının mümkün olmadığı hüquqi şəxslərin dairəsinin genişləndirilərək, nəzarət səhm zərfi dövlətə (bələdiyyəyə) məxsus olan hüquqi şəxslərin (o cümlədən publik hüquqi şəxslərin) də həmin dairəyə daxil edilməsi zəruridir.

FƏSİL 3. Hüquqi şəxslərin inzibati məsuliyyəti. Hüquqi şəxslər inzibati və cinayət hüququnun subyekti kimi

HÜQUQİ ŞƏXSLƏRİN MÜLKİ MƏSULİYYƏTİ

Hüquqi şəxslərin mülkiyyətində ayrıca əmlakı vardır, hüquqi şəxslər öz öhdəlikləri üçün bu əmlakla cavabdehdirlər.

Milli qanunvericilikdə hüquqi şəxslərin müvafiq əsaslar olduğu təqdirdə həm mülki, həm inzibati, həm də cinayət məsuliyyəti daşıması nəzərdə tutulmuşdur. Belə ki, hüquqi şəxslər qanunvericiliklə nəzərdə tutulmuş hallarda mülki öhdəlik daşıyırlar. Bu müddəa Azərbaycan Respublikası Mülki Məcəlləsinin 43-cü maddəsində bilavasitə nəzərdə tutulmuşdur. Həmin maddəyə əsasən hüquqi şəxslərin mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdirlər. Qanunun mənasına görə hüquqi şəxslər mülki hüquq münasibətlərindən törəyən öhdəliklərə görə mülki məsuliyyət daşıyırlar.

Qüvvədə olan qanunvericilik hüquqi şəxslərin inzibati hüquqpozmalara görə inzibati məsuliyyət daşımasını da müəyyən etmişdir. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 7.1-ci maddəsinə əsasən inzibati xəta törətmiş şəxslər irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər. Bu maddədə nəzərdə tutulmuş əsaslara görə heç kəs inzibati məsuliyyətə cəlb oluna və inzibati məsuliyyətdən azad oluna bilməz. Qanunverici göstərilən müddəada "şəxslər" ifadəsindən istifadə etməklə, həm fiziki, həm də hüquqi şəxslərin inzibati məsuliyyətin subyekti olmalarını nəzərdə tutmuşdur. Həmin maddənin 7.3-cü maddəsində isə hüquqi şəxslərin inzibati hüququn subyekti olması bilavasitə öz əksini tapmışdır. Həmin maddəyə əsasən hüquqi şəxslər mülkiyyət formasından, yerləşdiyi yerdən, təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq inzibati məsuliyyətə cəlb edilirlər. Göründüyü kimi inzibati xətalara dair qanunvericilik inzibati məsuliyyətə cəlb olunması mümkün olan hüquqi şəxslərin geniş dairəsini müəyyən etməklə, mülkiyyət formasından, yerləşdiyi yerdən,

təşkilati-hüquqi formasından və tabeliyindən asılı olmayaraq bütün hüquqi şəxslərin qanunvericiliklə təsbit olunmuş əsaslar olduğu təqdirdə inzibati məsuliyyətə cəlb olunmalarının mümkünlüyünü nəzərdə tutmuşdur. Müqayisə üçün qeyd olunmalıdır ki, inzibati məsuliyyətə cəlb olunması mümkün olan hüquqi şəxslərin dairəsi, cinayət məsuliyyətinə cəlb olunması mümkün olan hüquqi şəxslərin dairəsindən daha genişdir.

Hesab edirik ki, müəyyən kateqoriya subyektlərin inzibati məsuliyyətə cəlb edilməsinin mümkün olmaması barədə müddəanın inzibati xətalara dair qanunvericiliyə daxil edilməsi məqsədəmüvafiqdir. Belə ki, əvvəlki fəsildə də qeyd olunduğu kimi barəsində cinayət hüquqi tədbirlərin tətbiq olunması mümkün olan hüquqi şəxslərin dairəsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4-cü maddəsi ilə məhdudlaşdırılmış, dövlət, bələdiyyələr, həmçinin beynəlxalq təşkilatların barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqinin mümkün olmadığı göstərilmişdir. İnzibati xətalara dair qanunvericilik isə dövlət, bələdiyyələr, həmçinin beynəlxalq təşkilatlara münasibətdə hər hansı xüsusi norma müəyyən etməmişdir. Bu baxımdan dövlət orqanlarının inzibati məsuliyyət daşıması formal cəhətdən mümkün olsa da, onların inzibati məsuliyyətə cəlb edilməsi fikrimizcə səmərəsizdir. Belə ki, dövlət qurumlarının dövlət büdcəsi hesabına maliyyələşməsi nəzərə alındıqda dövlət qurumu barəsində inzibati tənbeh qismində tətbiq olunacaq maliyyə sanksiyası sonda hər bir halda dövlət büdcəsi hesabına ödəniləcək, bu isə inzibati tənbehin tətbiqini səmərəsiz və məqsədsiz edəcəkdir. Göstərilənlərə əsasən belə hesab edirik ki, dövlət, bələdiyyələr, həmçinin beynəlxalq təşkilatların, o cümlədən publik hüquqi şəxslərin inzibati məsuliyyət məsələsini tənzimləyən ayrıca normanın qanunvericiliyə daxil edilməsi məqsədəmüvafiqdir.

İnzibati xətalara dair qanunvericilik xarici hüquqi şəxslərin də inzibati məsuliyyətə cəlb olunmasının mümkünlüyünü bilavasitə nəzərdə tutmuşdur. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə əsasən hüquqi şəxslər, o cümlədən xarici hüquqi şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri bu Məcəllənin Xüsusi hissəsində nəzərdə tutulmuş inzibati xətalara görə inzibati məsuliyyətə cəlb olunurlar.[7]

[7] Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 18.1-ci maddəsi

Xüsusilə vurğulanmalıdır ki, inzibati xətalara dair qanunvericilik hüquqi şəxslərin məsuliyyətə cəlb olunmasına dair beynəlxalq sənəd və konvensiyaların tələblərinə və beynəlxalq standartlara uyğun şəkildə hazırlanmışdır. Belə ki, beynəlxalq təcrübəyə və hamılıqla qəbul olunmuş beynəlxalq standartlara əsasən hüquqi şəxslər yalnız fiziki şəxslər tərəfindən onların adlarından, onların xeyrinə və ya maraqlarının qorunması məqsədilə törədilmiş hüquqpozmalara görə məsuliyyətə cəlb oluna bilərlər. Göstərilən müddəa inzibati xətalara dair qanunvericilikdə bilavasitə öz əksini tapmışdır. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 18.2-ci maddəsinə əsasən hüquqi şəxslər dairəsi həmin maddə ilə müəyyən edilən şəxslər tərəfindən onların xeyrinə və ya onun maraqlarının qorunması üçün inzibati məsuliyyət daşıyırlar. Müvafiq şəxslərin dairəsi həmin maddə ilə aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1) hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
2) hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
3) hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
4) bu Məcəllənin 18.2.1-18.2.3-cü maddələrində nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.



Göründüyü kimi inzibati xətalara dair qanunvericilik inzibati hüquqpozma hesab olunan əməllərinə görə hüquqi şəxslərin məsuliyyət daşıdığı fiziki şəxslərin geniş dairəsini müəyyən etmişdir. Həmin şəxslər dairəsi Azərbaycan Respublikası Cinayət Məcəlləsinin

99-4.1-ci maddəsi ilə nəzərdə tutulmuş şəxslər dairəsi ilə üst-üstə düşür.

Cinayət qanunvericiliyində olduğu kimi, inzibati xətalara dair qanunvericilikdə də "fiziki və hüquqi şəxslərin məsuliyyətinin muxtarlığı" prinsipi rəhbər tutulmuşdur. Belə ki, inzibati xətalara dair qanunvericiliyə əsasən hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsi həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı şəkildə iştirak etmiş vəzifəli şəxsin inzibati məsuliyyətini istisna etmir. Eyni zamanda İnzibati Xətalar Məcəlləsinin 18.2-ci maddəsində nəzərdə tutulmuş vəzifəli şəxs barəsində bu Məcəllənin 53.0.8-ci maddəsinə əsasən inzibati xəta haqqında işin icraatına xitam verilməsi hüquqi şəxsin inzibati məsuliyyətə cəlb edilməsinə mane olmur.

Bundan əlavə qeyd olunmalıdır ki, hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlər yalnız məhkəmə qərarı əsasında tətbiq olunduğu kimi, hüquqi şəxslər barəsində inzibati tənbeh yalnız hakim tərəfindən tətbiq edilir. İnzibati Xətalar Məcəlləsinə əsasən səlahiyyətli orqanlar (vəzifəli şəxslər) həmin Məcəllənin 18.2-ci maddəsində müəyyən edilmiş əsasların olması qənaətinə gəldikdə, inzibati xəta haqqında protokolu baxılmaq üçün məhkəməyə göndərir, müvafiq əsaslar olmadıqda, səlahiyyətli orqanlar (vəzifəli şəxslər) inzibati xəta haqqında iş üzrə qərar qəbul edirlər.

hüquqi şəxslər barəsində inzibati tənbeh **yalnız hakim** tərəfindən tətbiq edilir.

Həm cinayət, həm də inzibati xətalara dair qanunvericilikdə barəsində hüquqi təsir tədbirinin tətbiqi nəzərdə tutulmuş hüquqi şəxslər məhkəmə qərarı qəbul olunanadək yenidən təşkil olunduğu hallarda, həmin təsir tədbirinin hüquqi şəxsin varisinə tətbiq olunmasının mümkünlüyü öz əksini tapmışdır. Göstərilən müddəa müvafiq olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.6 və İnzibati Xətalar Məcəlləsinin 18.8-ci maddələrində öz əksini tapmışdır.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi inzibati tənbeh növlərindən yalnız üçünün hüquqi şəxslər barəsində tətbiqinin mümkünlüyünü nəzərdə tutmuşdur. Həmin inzibati tənbeh növləri aşağıdakılardır:

1. xəbərdarlıq;
2. inzibati cərimə;
3. inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi;

Hüquqi şəxslər barəsində tətbiq olunması mümkün inzibati tənbeh növlərini və hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi xarakterli tədbirləri aşağıdakı kimi qruplaşdırmaq mümkündür.

Hüquqi şəxslər barəsində tətbiq oluna bilən inzibati tənbeh növləri	**Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi xarakterli tədbirlər**
1. xəbərdarlıq	
2. inzibati cərimə (50 min manatadək)	1. cərimə (əlli min manatdan iki yüz min manatadək)
3. inzibati xətanın törədilməsində alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi	2. xüsusi müsadirə
	3. hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə
	4. hüquqi şəxsi ləğv etmə

Cədvəldən də göründüyü kimi qanunvericilik cərimə və müsadirənin həm inzibati tənbeh, həm də cinayət-hüquqi tədbir kimi tətbiqinin mümkünlüyünü nəzərdə tutmuşdur. Maraqlı haldır ki, inzibati xətalara dair qanunvericilik xüsusi hüququn məhdudlaşdırılması növündə inzibati tənbehin mövcudluğunu nəzərdə tutsa da, bu növdən olan inzibati tənbehin yalnız fiziki şəxslər barəsində tətbiqini mümkün hesab etmişdir. Cinayət qanunvericiliyinə əsasən isə qanunvericiliklə müəyyən olunmuş əsaslar olduqda hüquqi şəxslər barəsində müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət hüquqi xarakterli tədbirin tətbiqi mümkündür. Hesab edirik ki, göstərilən fərqliliyin qanunvericilikdə nəzərdə tutulması inzibati xətanın cinayət aktından fərqli olaraq ictimai təhlükəli olmaması və az əhəmiyyətli olmaqla şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməməsi, bu

cür zərər yetirmək təhlükəsi yaratmaması ilə əlaqədardır. Bu səbəbdən də, hüquqi şəxsin təsərrüfat fəaliyyətinə xələl gətirilməməsi məqsədilə inzibati xətalara dair qanunvericilik xüsusi hüququn məhdudlaşdırılması növündə inzibati tənbehin hüquqi şəxslər barədə tətbiqini mümkün hesab etməmişdir.

Həm cinayət, həm də inzibati xətalara dair qanunvericilik hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin və inzibati tənbehin tətbiqi zamanı bir sıra halların nəzərə alınmalı olması barədə tələb müəyyən etmişdir. Həmin halları aşağıdakı kimi qruplaşdırmaq mümkündür :

Hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən nəzərə alınan hallar	**Hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən nəzərə alınan hallar**
inzibati xətanın xarakteri	cinayətin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsi
inzibati xəta nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi	cinayət nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi
hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən onun maliyyə və əmlak vəziyyəti, xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması	hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən əvvəllər onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi, yaxud xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması
məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar	
	cinayətlərin sayı və onun (onların) nəticələrinin ağırlığı
	cinayətin açılması, onun iştirakçılarının ifşa edilməsi, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışı və tapılmasına kömək etmə
	cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, zərərçəkmiş şəxsə dəymiş zərərin

	azaldılmasına yönəldilmiş hüquqi şəxs tərəfindən görülən digər tədbirlər

Cədvəldən də göründüyü kimi hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin və inzibati tənbehin tətbiqi zamanı nəzərə alınan hallar müəyyən hissədə üst-üstə düşür. Eyni zamanda qeyd olunmalıdır ki, məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halların məcmusu hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən nəzərə alınan hallardan biri kimi nəzərdə tutulsa da, cinayət qanunvericiliyi cinayət məsuliyyətini yüngülləşdirən yalnız bir neçə halın hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi zamanı nəzərə alınmasının mümkünlüyünü nəzərdə tutmuşdur.



Hüquqi şəxslərin maraqlarının və keyfiyyətli müdafiə hüququnun təmin edilməsi məqsədilə qanunvericilik həm barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi üzrə icraat, həm də barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəyə malik olmaq hüququnu müəyyən etmişdir.

FƏSİL 4. Hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqi əsasları və şərtləri. Hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsi

Hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqinin əsas və şərtləri Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilmişdir. Göstərilən müddəaya əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi xarakterli tədbirlər həmin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün dairəsi Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilən şəxslər tərəfindən törədilən müəyyən kateqoriya cinayətlərə görə tətbiq edilir.

Qanunun mənasına görə hüquqi şəxs barəsində cinayət hüquqi tədbirlərin tətbiqinin mümkünlüyünün 3 əsas şərti mövcuddur:

1) Cinayət əməli hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilməlidir.
2) Cinayət əməli dairəsi Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilmiş subyektlərdən hər hansı biri tərəfindən törədilməlidir.
3) Cinayət əməli Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilmiş cinayətlər dairəsinə aid olmalıdır.

Göstərilən şərtlərdən hər hansı birinin mövcud olmadığı hallarda hüquqi şəxs barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiqi istisna edilir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinə əsasən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilmiş əməl Azərbaycan Respublikası CM-nin 99-4.5-ci maddəsində nəzərdə tutulmuş əməllərdən hər hansı biri olduqda və yalnız aşağıdakı subyektlərdən biri tərəfindən törədildikdə hüquqi şəxs barəsində cinayət hüquqi xarakterli tədbirlərin tətbiqi üçün əsas ola bilər:



1. hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
2. hüquqi şəxsin adından qərarlar qəbul etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
3. hüquqi şəxsin fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs;
4. 1-3-cü bəndlərdə nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi.

Göründüyü kimi 1-3-cü bəndlərdə nəzərdə tutulmuş subyekt müvafiq səlahiyyətə malik olmalıdır. Bu cür səlahiyyət qanunla, hüquqi şəxsin nizamnaməsi və ya təsis sənədi ilə müəyyən edilə bilər. Odur ki, hüquqi şəxslər barəsində cinayət hüquqi xarakterlərin tətbiqi zamanı istintaq orqanı hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş fiziki şəxsin müvafiq səlahiyyətə malik olub-olmamasını, bu cür səlahiyyətin hansı aktlarda öz əksini tapmasını müəyyənləşdirməlidir. 4-cü bənddə göstərilən subyekt qismində isə hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş hüquqi şəxsin hər hansı işçisi çıxış edə bilər. İstintaq orqanı bu zaman nəzərə almalıdır ki, hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş işçi, bu hərəkətlərini 1-3-cü bəndlərdə nəzərdə tutulmuş vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində törətdikdə hüquqi şəxs barəsində cinayət-hüquqi xarakterli tədbirlər tətbiq oluna bilər. Belə olan halda, istintaq orqanı hüquqi şəxsin işçisi tərəfindən onun xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilmiş cinayətin müvafiq vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində törədilməsini sübut etməli, həmin vəzifəli şəxslərin nəzarət öhdəliyinə malik olmalarını təsdiq edən sənədləri icraat materialın əlavə etməlidir (vəzifə təlimatı və s.). Eyni zamanda qanunvericiliklə nəzərdə tutulmuş əsaslar olduqda müvafiq nəzarəti həyata keçirməli olduğu halda həyata keçirməmiş vəzifəli şəxslər Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməli və ya barələrində prokuror aktları tətbiq olunmalıdır.

Əvvəlki fəsillərdə qeyd olunduğu kimi "hüquqi şəxslərin cinayət məsuliyyəti" institutu milli qanunvericiliyə implementasiya edilərkən "fiziki və hüquqi şəxslərin məsuliyyətlərinin muxtariyyəti" prinsipi rəhbər tutulmuşdur. Belə ki, qanunvericiliyə əsasən fiziki və hüquqi şəxslərin məsuliyyət məsələsi ayrılıqda həll edilir. Göstərilən müddəa Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsində bilavasitə öz əksini tapmışdır:

Hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqi həmin əməli törətmiş və ya onun törədilməsində hər hansı şəkildə iştirak etmiş fiziki şəxsin cinayət məsuliyyətini istisna etmir. Eyni zamanda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində qanunla müəyyən edilmiş hallarda cinayət təqibinə xitam verilməsi hüquqi şəxsə cinayət-hüquqi tədbirlərin tətbiqinə mane olmur. Odur ki, istintaq orqanı fiziki və hüquqi şəxslərin məsuliyyət məsələsini bir-birilərindən asılı olmadan, müstəqil şəkildə həll etməlidir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 55.1-ci maddəsinə əsasən hüquqi şəxs təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə yenidən təşkil edilə bilər (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə). Müvafiq əsaslar olduqda hüquqi şəxslərin yenidən təşkil edilməsinin mümkünlüyünün Mülki Məcəllə ilə nəzərdə tutulması, adekvat normanın cinayət qanunvericiliyinə də daxil edilməsini şərtləndirmişdir. Belə ki, Azərbaycan Respublikası CM-nin 99-4.6-cı maddəsinə əsasən məhkəmə tərəfindən cinayət-hüquqi tədbirin təyin edilməsi ilə bağlı qərar qəbul olunanadək hüquqi şəxs yenidən təşkil olunduqda cinayət-hüquqi tədbirlər hüquqi şəxsin hüquqi varisinə təyin olunur. Eyni zamanda məhkəmə tərəfindən cinayət-hüquqi tədbirin təyin edilməsi ilə bağlı qərar qəbul olunduğu vaxtdan tam icra olunana və ya ləğv olunanadək hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi qadağandır.

Qeyd edilməlidir ki, mülki və cinayət qanunvericilik arasında uyğunluğun və normaların işləkliyinin təmin edilməsi məqsədilə 9 iyul 2019-cu il tarixli Azərbaycan Respublikası Qanunu ilə Azərbaycan Respublikası Mülki Məcəlləsində dəyişiklik edilərək aşağıdakı məzmunda 55.7-ci maddə əlavə edilmişdir:

"Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin yenidən təşkil olunması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin yenidən təşkil edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir."

Cinayət mühakimə icraatı zamanı hüquqi şəxslərin yenidən təşkil olunmasının qadağan edilməsi üçün prosessual qayda və əsaslar Azərbaycan Respublikası Cinayət-prosessual qanunvericiliyin müvafiq maddələri ilə tənzimlənmişdir.

FƏSİL 5. Hüquqi şəxslərə tətbiq edilən cinayət-hüquqi xarakterli tədbirlərin növləri

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 8-ci maddəsinə əsasən hüquqi şəxslər barəsində tətbiq olunacaq cinayət hüquqi xarakterli ədalətli olmalı, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına uyğun olmalıdır.

Həmin Məcəllənin 99-5-ci maddəsinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən aşağıdakı hallar nəzərə alınır:

1. cinayətin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsi;
2. cinayət nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi;
3. cinayətlərin sayı və onun (onların) nəticələrinin ağırlığı;
4. cinayətin açılması, onun iştirakçılarının ifşa edilməsi, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışı və tapılmasına kömək etmə;
5. cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, zərərçəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş hüquqi şəxs tərəfindən görülən digər tədbirlər.
6. hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən əvvəllər onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi, yaxud xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması.

Qüvvədə olan cinayət qanunvericiliyi hüquqi şəxslər barəsində tətbiq edilməsi mümkün cinayət-hüquqi xarakterli tədbirlərin 4 növünü fərqləndirir :

1.	**Cərimə**
2.	**Xüsusi müsadirə**
3.	**Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə**
4.	**Hüquqi şəxsi ləğv etmə**

Cinayət-hüquqi xarakterli tədbirlər aşağıdakı qaydada tətbiq olunur:

Cərimə- həm əsas, həm əlavə cinayət-hüquqi xarakterli tədbir kimi
Xüsusi müsadirə- yalnız əlavə cinayət-hüquqi xarakterli tədbir kimi
Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olmaq hüququndan məhrum etmə- yalnız əlavə cinayət-hüquqi xarakterli tədbir kimi
Hüquqi şəxsi ləğv etmə- yalnız əsas cinayət-hüquqi xarakterli tədbir kimi

Xüsusi müsadirə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15-1-ci fəsli ilə müəyyən edilmiş qaydada tətbiq edilir.

Cinayətin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsi- Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.1-ci maddəsində cinayətlərin ictimai təhlükəliliyinin xarakteri və dərəcəsinə görə 4 növü (böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır) fərqləndirilmişdir. Odur ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5-ci maddəsinin tələbinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən fiziki şəxslər tərəfindən törədilmiş cinayətin hansı təsnifata aid olması (böyük ictimai təhlükə törətməyən, az ağır, ağır və xüsusilə ağır cinayətlər dairəsinə aid olması) nəzərə alınmalıdır.

Cinayət nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi- Beynəlxalq təcrübə göstərir ki, hüquqi şəxsin cinayət nəticəsində əldə etdiyi xeyir həm maddi, həm də qeyri-maddi xarakterli ola bilər. Maddi xarakterli xeyir hüquqi şəxsin aktivlərinin, əmlakının artmasında, qeyri-maddi xarakterli xeyir isə hüquqi şəxsin hər hansı güzəşt və ya imtiyazı qanunsuz əldə etməsində və ya hər hansı öhdəliyin icrasından qanunsuz azad edilməsində ifadə oluna bilər. (Məsələn Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4-cü maddəsində nəzərdə tutulmuş şəxs vəzifəli şəxsə rüşvət verməklə hüquqi şəxs üçün hər hansı qanunsuz üstünlük əldə edir (tenderdə qalib olmasına nail olur və s.) və yaxud hüquqi şəxsi hər hansı öhdəlikdən azad edir. (verdiyi rüşvət müqabilində hər hansı maliyyə yoxlamasını təxirə salır və ya hüquqi şəxsin həmin yoxlamadan tamamilə azad olunmasına nail olur). Cinayət nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi istintaq zamanı

istintaq orqanı tərəfindən müəyyənləşdirilməli, məhkəmə tərəfindən cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən nəzərə alınmalıdır.

Cinayətlərin sayı və onun (onların) nəticələrinin ağırlığı- Hesab edirik ki, göstərilən norma qanunvericiliyə hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilmiş cinayətlərin sayının birdən çox olmasının mümkünlüyü nəzərə alınmaqla daxil edilmişdir. Belə ki, qanunun mənasına görə hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi onun xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilmiş cinayətlərin sayına adekvat olmalıdır. Bundan əlavə, qanunvericilik hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddinin müəyyən olunması zamanı həm cinayətin özünün ağırlıq dərəcəsinin, həm də cinayətin nəticələrinin ağırlığının nəzərə alınmalı olduğunu müəyyən etmişdir. Bu zaman qanunvericilik törədilmiş cinayətin az ictimai təhlükəli cinayətlər kateqoriyasına daxil olmasına baxmayaraq, bir çox şəxsin marağına toxunmaqla, bilavasitə ictimai mənafeyə qəsd etməklə ağır nəticələrə səbəb olması kimi ehtimalları nəzərə almışdır.

Cinayətin açılması, onun iştirakçılarının ifşa edilməsi, cinayət nəticəsində əldə edilmiş əmlakın axtarışı və tapılmasına kömək etmə- Qeyd edilməlidir ki, göstərilən hal, həm də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59-cu maddəsinə əsasən məsuliyyəti yüngülləşdirən hallar sırasına daxil edilmişdir. Qüvvədə olan qanunvericilik Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59 və 60-cı maddələrində nəzərdə tutulmuş məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halların hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən nəzərə alınmasının mümkünlüyünü nəzərdə tutmasa da, həmin halların bir hissəsi həmin Məcəllənin 99-5-ci maddəsində əks olunmuşdur. Müqayisə üçün qeyd edək ki, inzibati qanunvericilik cinayət qanunvericiliyindən fərqli olaraq hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halların nəzərə alınmalı olduğunu müəyyən etmişdir.

Cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması, zərərçəkmiş şəxsə dəymiş zərərin azaldılmasına yönəldilmiş hüquqi şəxs tərəfindən görülən digər tədbirlər- Həmin hallar da Azərbaycan Respublikası

Cinayət Məcəlləsinin 59-cu maddəsinə əsasən məsuliyyəti yüngülləşdirən hallar sırasına daxil edilmişdir. Bu zaman hüquqi şəxs tərəfindən cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin könüllü olaraq ödənilməsi və ya aradan qaldırılması nəzərə alınmalıdır. Tətbiq olunmuş prosessual təsir tədbiri nəticəsində cinayət nəticəsində dəymiş maddi və mənəvi zərərin ödənilməsi və ya aradan qaldırılması hüquqi şəxsin məsuliyyətinin yüngülləşdirilməsinin əsası kimi çıxış edə bilməz.

Hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən əvvəllər onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi, yaxud xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması- Qanunvericilik hüquqi şəxsi xarakterizə edən hallar dedikdə nəyin nəzərdə tutulmasını bilavasitə müəyyən etməsə də, həmin halların bir qismi göstərilən müddəanın özündə əks olunmuşdur: 1. cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi 2. yaxud xeyriyyəçilik və ya 3. digər ictimai faydalı fəaliyyətlə məşğul olması

Cərimə:





Öz xarakterinə görə cəriməni hüquqi şəxslər barəsində tətbiq olunan ən yüngül cinayət-hüquqi xarakterli tədbir hesab etmək mümkündür. Belə ki, bu növdən olan cinayət-hüquqi tədbirin tətbiqi zamanı hüquqi şəxsin itkisi yalnız maddi xarakter daşıyır, hüquqi şəxs hər hansı güzəşt, imtiyaz və ya hüquqdan məhrum edilmir. Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi xarakterli tədbirlər qismində tətbiq olunan cərimə, cəza qismində tətbiq olunan cərimə ilə

həm oxşar, həm də fərqli cəhətlərə malikdir. Bu baxımdan onların qarşılıqlı müqayisəsini zəruri hesab edirik:

cərimə (cəza)- Cərimə bu Məcəllə ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən pul tənbehidir.[8]

cərimə (cinayət-hüquqi xarakterli tədbir)- Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda və məbləğdə məhkəmə tərəfindən təyin edilən və dövlət nəfinə keçirilən məcburi pul tutulmasından ibarətdir.[9]

Yuxarıda göstərilən anlayışlardan da aydın olduğu kimi, cərimə həm cəza həm də cinayət hüquqi xarakterli tədbir kimi oxşar xarakterə malik olmaqla, Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən edilmiş hallarda məhkəmə tərəfindən təyin edilən, Azərbaycan Respublikası Cinayət Məcəlləsi ilə müəyyən edilmiş həddə olan məbləğin müvafiq subyektdən tutularaq dövlət nəfinə keçirilməsi ilə müşayiət olunan hüquqi təsir tədbiridir.

Mahiyyət etibari ilə oxşar olsa da, cəza qismində təyin edilən cərimənin və cinayət-hüquqi xarakterli tədbir qismində tətbiq edilən cərimənin məbləğlərinin aşağı və yuxarı hədləri fərqlidir. Belə ki:

cərimə (cəza)- törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla : 1) iyirmi min manatadək miqdarda və ya **2)** cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda, **3)** habelə cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarda müəyyən olunur.

cərimə (cinayət-hüquqi xarakterli tədbir) - Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-6.3, 99-6.4 və 99-8.3-cü maddələrində göstərilən hallar və hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmaqla: **1)** əlli min manatdan iki yüz min manatadək miqdarda və ya **2)** cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən beş mislinədək miqdarda müəyyən olunur.

[8] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
[9] Azərbaycan Respublikasının Cinayət Məcəlləsi

cərimə (cəza)	cərimə (cinayət-hüquqi xarakterli tədbir)
iyirmi min manatadək	əlli min manatdan iki yüz min manatadək
vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən on mislinədək miqdarda	vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən beş mislinədək miqdarda
cinayətin predmetinin dəyərinin yüz faizinədək miqdarda	

Cərimə cəza qismində tətbiq olunarkən **1)** cinayətin ağırlığı **2)** məhkumun əmlak vəziyyəti

Cərimə cinayət hüquqi tədbir qismində tətbiq olunarkən isə **1)** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-6.3, 99-6.4 və 99-8.3-cü maddələrində göstərilən hallar və **2)** hüquqi şəxsin maliyyə-iqtisadi vəziyyəti nəzərə alınmalıdır.

Xüsusilə qeyd olunmalıdır ki, Azərbaycan Respublikası CM-nin 99-6-cı maddəsi həmin Məcəllənin 44-cü maddəsinə münasibətdə daha təkmil xarakter daşımaqla, təyin olunması mümkün cərimənin cinayətin ağırlıq dərəcəsinə görə yuxarı və aşağı həddini müəyyən edir. Belə ki, hüquqi şəxslərə cərimə növündə cinayət-hüquqi tədbir aşağıdakı hədlərdə təyin edilir:

böyük ictimai təhlükə törətməyən cinayətlərə görə - əlli min manatdan yetmiş beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) bir mislindən iki mislinədək miqdarda;

az ağır cinayətlərə görə - yetmiş beş min manatdan yüz min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) iki mislindən üç mislinədək miqdarda;

ağır cinayətlərə görə - yüz min manatdan yüz iyirmi beş min manatadək, yaxud cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) üç mislindən dörd mislinədək miqdarda;

xüsusilə ağır cinayətlərə görə - yüz iyirmi beş min manatdan yüz əlli min manatadək miqdarda, yaxud cinayət nəticəsində vurulmuş

ziyanın (əldə edilmiş gəlirin) dörd mislindən beş mislinədək miqdarda.

Lakin nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası CM-nin 99-6.4-cü maddəsinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cərimənin məbləği onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz.

İstintaq orqanı ibtidai istintaq gedişində gələcəkdə hüquqi şəxs barəsində tətbiq olunması mümkün cərimənin yönəldilə biləcəyi əmlakın müəyyən edilməsi, qanunvericiliklə müəyyən edilmiş hallarda isə hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə prosessual təsir imkanlarından istifadə etməlidir.

Hüquqi şəxsə tətbiq olunacaq cərimənin məbləği onun əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil edə bilməz.

Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə

Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbir qismində hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə:

1. Sahibkarlıq fəaliyyətinin müəyyən növünü həyata keçirməyə icazə verən xüsusi razılığın (lisenziyanın) və ya xüsusi icazənin ləğv edilməsindən,
2. Müəyyən əqdlərin bağlanılmasının, səhm və ya digər qiymətli kağızların buraxılmasının, dövlətdən subsidiyaların və ya başqa güzəştlərin əldə edilməsinin qadağan edilməsindən
3. Digər fəaliyyətlə məşğul olmanın qadağan edilməsindən ibarətdir.




“Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası qanununa əsasən lisenziya dedikdə müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi üçün ərizəçiyə lisenziya verən orqan tərəfindən verilən rəsmi sənəd başa düşülür. Adı çəkilən qanunun 26-cı maddəsi lisenziya və icazənin ləğvinin hallarını müəyyən edir və həmin hallar siyahısına məhkəmənin müvafiq qərarının olması, eləcə də, Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallar da daxil edilmişdir. Hesab edirik ki, həmin hallardan biri məhz hüquqi şəxs barəsində cinayət-hüquqi xarakterli tədbirin tətbiqidir.

2 və 3-cü bəndlərdə nəzərdə tutulmuş təsir tədbirləri isə hüquqi şəxsin müəyyən hüquq və imtiyazlardan məhrum edilməsində ifadə olunur.

Məhkəmə tərəfindən hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququnun saxlanılması qeyri-mümkün hesab edildikdə təyin edilir və bu zaman Azərbaycan Respublikası CM-nin 99-5.4-cü maddəsində göstərilən hallar nəzərə alınmalıdır. Hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə törədilmiş cinayətin aid olduğu təsnifat nəzərə alınmaqla aşağıdakı müddətlərdə təyin edilir :

böyük ictimai təhlükə törətməyən cinayətlərə görə - bir ildən iki ilədək müddətə;

az ağır cinayətlərə görə - iki ildən üç ilədək müddətə;

ağır cinayətlərə görə - üç ildən dörd ilədək müddətə;

xüsusilə ağır cinayətlərə görə - dörd ildən beş ilədək müddətə.

Hesab edirik ki, həm cərimə, həm də hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cinayət-hüquqi

tədbiri üçün cinayətin ağırlıq dərəcəsi nəzərə alınmaqla aşağı və yuxarı həddin müəyyən edilməsi korrupsiya təzahürlərinin, eləcə də, digər subyektiv müdaxilə imkanlarının aradan qaldırılmasına xidmət edən mütərəqqi addımdır.





Hüquqi şəxsi ləğv etmə:



Cinayət qanunvericiliyinin ümumi təhlilinə əsasən demək mümkündür ki, hüquqi şəxsi ləğv etmə hüquqi şəxs barəsində tətbiq olunan ən ciddi cinayət-hüquqi tədbirdir. Belə ki, Azərbaycan Respublikası CM-nin 99-8.1-ci maddəsinə əsasən hüquqi şəxsi ləğv etmə hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilən cinayətlə əlaqədar onun mövcudluğuna və fəaliyyətinə, hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsindən ibarət müstəsna cinayət-hüquqi tədbirdir.

Qanunvericilik hüquqi şəxsi ləğv etməyə "müstəsna" cinayət-hüquqi tədbir statusu verməklə, onun tətbiqi yalnız qanunvericiliklə müəyyən edilmiş zəruri əsaslar və hallar olduqda mümkün hesab edir. Həmin əsaslar Azərbaycan Respublikası CM-nin 99-8.2-ci maddəsi ilə müəyyən edilmişdir :

Hüquqi şəxsi ləğv etmə :

onun mövcudluğuna və fəaliyyətinə, hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsindən ibarət **müstəsna** cinayət-hüquqi tədbirdir.

1) hüquqi şəxs mütəmadi olaraq cinayətlərin törədilməsində istifadə edildikdə
2) cinayətin izlərinin, cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın gizlədilməsində istifadə edildikdə
2) onun əmlakının yarıdan çox hissəsi bu Məcəllənin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli əmlakdan ibarət olduqda tətbiq olunur.

Qanunvericilik hüquqi şəxsi ləğv etmənin tətbiqinin şərtlərindən biri kimi müvafiq hüquqi şəxsin mütəmadi olaraq cinayətlərin törədilməsində istifadə edilməsini nəzərdə tutmuşdur. Həm cinayət, həm də cinayət-prosessual qanunvericiliyin bir sıra müddəalarında "mütəmadilik" ifadəsindən istifadə olunsa da, təəssüf ki, qanunvericilik "mütəmadilik" üçün hər hansı təkmil anlayış müəyyən etməmişdir. Məsələn :

1) **Azərbaycan Respublikası CM-nin 71.3-cü maddəsi** - Şərti məhkum edilmiş şəxs sınaq müddətində məhkəmə tərəfindən onun üzərinə qoyulmuş vəzifələri **mütəmadi** və ya qərəzli olaraq yerinə yetirməkdən boyun qaçırdıqda, o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə, bu Məcəllənin 71.1-ci maddəsində göstərilən dövlət orqanının təqdimatı əsasında məhkəmə şərti məhkum etmənin ləğv edilməsi və hökmlə təyin olunmuş cəzanın icra olunması haqqında qərar çıxarır.
2) **Azərbaycan Respublikası CM-nin 76.6.1. maddəsi** - cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə tətbiq olunarkən məhkəmə

tərəfindən onun üzərinə qoyulmuş vəzifələri yerinə yetirməkdən **mütəmadi**, yaxud qərəzli olaraq boyun qaçırdıqda, o cümlədən elektron nəzarət vasitəsini gəzdirməkdən imtina etdikdə, onu zədələdikdə və ya digər üsulla yararsız vəziyyətə saldıqda, yaxud həmin vasitənin işlək vəziyyətdə saxlanılması üçün ona xidmət etmədikdə və ya ictimai qaydanı pozduğuna görə barəsində inzibati tənbeh tətbiq edildikdə, bu Məcəllənin 76.5-ci maddəsində göstərilən orqanların təqdimatı əsasında məhkəmə şərti olaraq vaxtından əvvəl azad etmənin ləğv edilməsi və cəzanın çəkilməmiş hissəsinin icra olunması haqqında qərar çıxara bilər.

3) **Azərbaycan Respublikası CM-nin 122.1. maddəsi** -Zərərçəkmiş şəxs tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və ya əxlaqsız hərəkətlər (hərəkətsizlik) nəticəsində, habelə zərərçəkmiş şəxsin **mütəmadi** qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait nəticəsində qəflətən baş vermiş güclü ruhi həyəcan (affekt) vəziyyətində qəsdən adam öldürmə

4) **Azərbaycan Respublikası CPM-nin 115.2. maddəsi-** Hal şahidinin iştirakının **mütəmadi** xarakter daşıması halları istisna olunmaqla, onun istintaq hərəkətinin icraatında əvvəllər iştirakı həmin cinayət təqibi üzrə aparılan digər istintaq hərəkətinin icraatında təkrar iştirakını istisna etmir və s.

Göründüyü kimi, həm cinayət, həm də cinayət-prosessual məcəllələrdə geniş istifadə olunan anlayış olsa da, mütəmadiliyin hər hansı dəqiq anlayışı qanunvericilikdə əks olunmamışdır. Xüsusilə qeyd olunmalıdır ki, bir sıra hallarda əməlin düzgün tövsifi, habelə tətbiq olunacaq hüquqi təsir tədbirinin növünün və həddinin müəyyən edilməsi zamanı bu cür anlayışların düzgün dərk edilərək istifadə edilməsi müstəsna əhəmiyyət kəsb edir.

"Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsini daha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 08.10.2010-cu il tarixli qərarında Cəzaların İcrası Məcəlləsində istifadə olunmuş "mütəmadilik" ifadəsinə aşağıdakı kimi anlayış verilmişdir :

“Qeyd edilən qanun normalarına görə mütəmadilik dedikdə cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxsin məhkəmə tərəfindən qadağan olunmuş hərəkətlərə **il ərzində iki dəfədən çox yol verməsi** və ya etməli olduğu hərəkətlərin **il ərzində iki dəfədən çox yerinə yetirilməməsi**, yaxud məhkəmələr tərəfindən üzərinə qoyulmuş vəzifələrin təkrar pozulmasına yol verməmək barədə nəzarət orqanı tərəfindən edilən yazılı xəbərdarlıqdan sonra da təkrar yerinə yetirilməməsi, qərəzli boyun qaçırma dedikdə isə 30 gündən çox müddətə ardıcıl olaraq cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxsin nəzarətdən gizlənərək olduğu yer haqqında məlumat verməməsi və ya olduğu yeri müəyyən etməyi çətinləşdirən hərəkətlər etməsi nəzərdə tutulur.”

Bundan başqa, Cəzaların İcrası Məcəlləsinin 178.6-cı maddəsinə əsasən cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxs tərəfindən onun üzərinə qoyulmuş vəzifələrin il ərzində **dəfələrlə** yerinə yetirilməməsi vəzifələri **mütəmadi** yerinə yetirməmə hesab edilir.

Göstərilən plenum qərarında və Cəzaların İcrası Məcəlləsində “mütəmadiliyə” verilən anlayışlar əsasında belə qənaətə gəlmək olar ki, mütəmadilik hər hansı hərəkət və ya hərəkətsizliyin müəyyən zaman hüdudunda (əsasən bir il ərzində) dəfələrlə və ya təkrarən edilməsidir.

Qeyd olunanlar ümumiləşdirilməklə aşağıda göstərilən fərziyyəni irəli sürmək mümkündür :

Hüquqi şəxs cinayətlərin törədilməsində dəfələrlə və ya təkrarən istifadə edildikdə onun barəsində ləğv etmə qismində cinayət-hüquqi xarakterli tədbirin tətbiqi mümkündür.

Hüquqi şəxsi ləğv etmə, həmçinin, hüquqi şəxs cinayətin izlərinin, cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın gizlədilməsində istifadə edildikdə, onun əmlakının yarıdan çox hissəsi bu Məcəllənin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli əmlakdan ibarət olduqda tətbiq olunur.

Beynəlxalq təcrübə göstərir ki, hüquqi şəxslər bəzi hallarda kommersiya və qeyri-kommersiya fəaliyyətlərinin həyata keçirilməsi məqsədi ilə deyil, həm də cinayətkar fəaliyyətin pərdələnməsi, kriminal fəaliyyətin təşkilində istifadə olunması məqsədilə yaradılır. Odur ki, istintaq orqanı hüquqi şəxslərin hər hansı cinayətkar fəaliyyətdə mütəmadi istifadəsinə dəlalət edən hallar aşkar etdikdə,

hərtərəfli, tam və obyektiv istinaqı təşkil etməklə, obyektiv həqiqətin müəyyən edilməsini təmin etməlidir.

Hüquqi şəxsi ləğv etmənin tətbiqinin mümkünlüyünü nəzərdə tutan digər bir hal isə hüquqi şəxsin əmlakının yarıdan çox hissəsi bu Məcəllənin 99-1.1-ci maddəsinə əsasən müsadirə edilməli əmlakdan ibarət olmasıdır. Göstərilən maddəyə əsasən müsadirə olunmalı əmlaklar siyahısına aşağıdakı predmetlər aid edilmişdir :

1. cinayət törədilərkən istifadə edilmiş alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla)
2. cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlak, habelə həmin pul vəsaitləri və ya digər əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan pul vəsaitləri və ya digər əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla);
3. cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi;
4. terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak.




Hüquqi şəxsin əmlakının yarıdan çox hissəsinin yuxarıda göstərilən kateqoriya əmlaklardan ibarət olması, onun barəsində cinayət-hüquqi tədbir qismində ləğv etmənin tətbiqi üçün əsasdır.

Bundan əlavə qeyd olunmalıdır ki, qanunverici hüquqi şəxs barəsində cinayət –hüquqi tədbir qismində ləğv etmənin təqbiq olunması zamanı, əlavə cinayət-hüquqi tədbir kimi cərimənin tətbiqini imperativ şərt kimi müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası CM-nin 99-8.3-cü maddəsinə əsasən hüquqi şəxs barəsində ləğv etmə növündə cinayət-hüquqi tədbir təyin edildikdə əlavə cinayət-hüquqi tədbir qismində həmin Məcəllənin 99-6.4-cü maddə-

sində göstərilmiş məhdudiyyət nəzərə alınmaqla iki yüz min manat miqdarında cərimə təyin edilir.

Göstərilən norma blanket xarakter daşımaqla Cinayət Məcəlləsinin 99-6.4-cü maddəsinə istinadı özündə əks etdirir. Belə ki, qanunun mənasına görə hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbiri tətbiq olunarkən, əlavə cinayət-hüquqi tədbir qismində iki yüz min manat miqdarında cərimənin tətbiqi məcburi xarakter daşısa da, bu zaman həmin məbləğin hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil etməməsi nəzərə alınmalıdır.

Hüquqi şəxsi ləğv etmə növündə cinayət-hüquqi tədbir təyin edildikdə əlavə cinayət-hüquqi tədbir qismində Cinayət Məcəlləsinin 99-6.4-cü maddəsi nəzərə alınmaqla **iki yüz min manat**

Qanunverici hüquqi şəxslər barəsində ləğv etmə tətbiq edilərkən, əlavə cinayət-hüquqi tədbir qismində tətbiq edilən cərimənin məbləği ilə bağlı məhdudiyyəti nəzərdə tutsa da, CM-nin 99-8.3-cü maddəsində nəzərdə tutulmuş məbləğin hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil etdiyi hallarda məhkəmənin hansı mövqedən çıxış etməli olduğunu müəyyən etməmişdir. Hesab edirik ki, bu cür konkretliyin olmaması normanın müxtəlif formada şərh olunmasına, nəticədə isə təcrübədə müvafiq problemlərin yaranmasına səbəb ola bilər. Bu səbəbdən də, CM-nin 99-8.3-cü maddəsində nəzərdə tutulmuş məbləğ hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil etdiyi hallarda məhkəmənin CM-nin 99-6.4-cü maddəsi nəzərə alınmaqla daha az məbləğdə cərimə təyin etməsinin mümkünlüyünü nəzərdə tutan konkret normanın qanunvericiliyə daxil edilməsi məqsədəmüvafiqdir.

Əvvəlki fəsillərdə qeyd olunduğu kimi, qanunverici barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinin mümkün olmadığı hüquqi şəxslərin konkret dairəsini müəyyən etmişdir. Hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbirinin tətbiqi ilə bağlı şərtlərin müəyyən edilməsi zamanı isə qanunvericilik həmin dairəni daha da genişləndirərək, siyasi partiyaları, həmkarlar ittifaqlarını, dövlət (bələdiyyə) müəssisələrinə və ya səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə (bələdiyyəyə) məxsus olan hüquqi şəxsləri də həmin kateqoriyaya aid etmişdir. Belə ki, Cinayət Məcəlləsinin 99-8.4-cü maddəsinə əsasən hüquqi şəxsi ləğv etmə siyasi partiyalara və həmkarlar ittifaqına, dövlət (bələdiyyə) müəssisələrinə və ya səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə (bələdiyyəyə) məxsus olan hüquqi şəxslərə tətbiq edilmir.

Hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsi



Azərbaycan Respublikasının Cinayət Məcəlləsi fiziki şəxsin cinayət məsuliyyətindən azad edilməsini mümkün edən hallarla yanaşı, hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsinin mümkün edən halları da nəzərdə tutmuşdur.

Belə ki, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 99-9-cu maddəsinə əsasən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş şəxs bu Məcəllənin 75-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad edildikdə, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilə bilməz.

Hüquqi şəxs cinayət-hüquqi xarakterli tədbirlərin tətbiqindən yalnız onun xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayət törətmiş şəxs cinayət məsuliyyətinə cəlb etmə müddətlərinin keçməsi ilə əlaqədar cinayət məsuliyyətindən azad edildikdə azad edilə bilər.

Göründüyü kimi, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 11-ci fəslində müddətin keçməsi ilə bağlı cinayət məsuliyyətindən azad etmə də daxil olmaqla, fiziki şəxsin cinayət məsuliyyətindən azad edilməsini mümkün hesab edən bir neçə hal nəzərdə tutulsa da, hüquqi şəxs onların yalnız birinə, yəni müddətin keçməsinə görə cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilə bilər.

FƏSİL 6. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri




Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-1-ci maddəsinə əsasən hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat həmin Məcəllənin 487-1-487-7-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat müstəntiqin əsaslandırılmış vəsatəti əsasında yalnız ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarı ilə başlana bilər.

Qeyd olunmalıdır ki, hüquqi şəxslər iqtisadiyyatın mühüm fiqurlarından biri olmaqla, onun stabilliyi və inkişafında mühüm rola malikdirlər. Hüquqi şəxslər barəsində hər hansı formada lüzumsuz cinayət təqibinin həyata keçirilməsi onun təsərrüfat fəaliyyətinə xələl gətirə, bu isə öz növbəsində iqtisadiyyat üzərində mənfi təsir yarada bilər.

Göstərilən müddəa nəzərə alınmaqla, qanunvericilik hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması üçün müəyyən məhdudiyyətlər müəyyən etmiş, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması səlahiyyətini ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora aid etmişdir.





Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.1-ci maddəsinə əsasən cinayət işi üzrə ibtidai istintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildikdə müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması barədə əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror vəsatətlə razılaşdıqda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar qəbul edir.

Göstərilən normadan da aydın olduğu kimi, cinayət-prosessual qanunvericlik müstəntiq üçün hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında müstəqil qərar qəbul etmək səlahiyyəti müəyyən etməmişdir. Həmçinin, göstərilən müddəadan aydın olur ki, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat yalnız cinayət işinin istintaqı zamanı qanunvericiliklə təsbit edilmiş əsaslar müəyyən edildikdə başlana bilər. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.1-ci maddəsində "müstəntiq cinayət işi üzrə ibtidai istintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət

edən sübutlar müəyyən etdikdə" müddəası öz əksini tapmışdır. Bu baxımdan belə qənaətə gəlmək olar ki, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması məsələsi yalnız cinayət işinin istintaqı gedişində müvafiq hallar aşkar edildiyi təqdirdə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror qarşısında qaldırıla bilər. Yəni hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat yalnız cinayət işinin istintaqı gedişində başlana bilər.

Cinayət işinin istintaqı zamanı hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması üçün zəruri əsasları aşkar etmiş müstəntiq, öz əsaslandırılmış vəsatətini ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməli, müvafiq qərar isə müstəntiqin dəlilləri ilə razılaşmış prokuror tərəfindən qəbul edilməlidir. Qanunun mənasına görə prokuror müstəntiqin dəlilləri ilə razılaşmadıqda, eləcə də, vəsatəti kifayət qədər əsaslı hesab etmədikdə "vəsatətin rədd edilməsi haqqında" qərar qəbul etmək hüququna malikdir. Qeyd olunmalıdır ki, qüvvədə olan qanunvericilik ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanmasından imtina barədə qərarından şikayət imkanını nəzərdə tutmamışdır. Belə ki, Azərbaycan Respublikası CPM-nə əsasən müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun bir sıra göstəriş və qərarları ilə razılaşmadığı hallarda, öz əsaslandırılmış etirazını yuxarı prokurora göndərmək hüququ müəyyən edilmişdir.[10] Lakin göstərilən maddə həmin göstəriş və qərarların dəqiq dairəsini müəyyən etməklə, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qəbul edilən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanmasından imtina barədə qərarı həmin dairəyə aid etməmişdir. Belə hesab edirik ki, göstərilən qərardan müstəntiq tərəfindən yuxarı prokurora etiraz edilməsinin mümkünlüyünü nəzərdə tutan normanın cinayət-prosessual qanunvericiliyə daxil edilməsi obyektiv meyarlar əsasında qərar qəbul edilməsi və korrupsiya təzahürlərinin aradan qaldırılması istiqamətində effektiv addım ola bilər.

[10] Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 85.5-ci maddəsi

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq və hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bir icraatda aparılır. Həmin maddədə nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.5, 39.1.10-39.1.12-ci və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə, toplanmış sübutlar hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və işin məhkəməyə göndərilməsi üçün kifayət hesab edilərsə, müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar həmin Məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir və bu 487-6.1-ci və 487-6.5-ci maddələrində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

Eyni zamanda, hüquqi şəxsin prosessual müdafiə imkanlarının təmin edilməsi məqsədilə, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması barədə qərar qəbul etmiş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror müvafiq qərarın surətini Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.3-cü maddəsinə əsasən 24 saat ərzində barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması barədə qərar qəbul edilmiş hüquqi şəxsə göndərməlidir.

Hüquqi şəxs müstəntiqin qərarı ilə tanınmış nümayəndəni icraatın istənilən mərhələsində dəyişmək hüququna malikdir

Prosessual müdafiə imkanlarının və hüquqi şəxsin maraqlarının effektiv müdafiəsinin təmin edilməsi məqsədilə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.4-cü maddəsinə əsasən hüquqi şəxsin nümayəndəsinin iştirakı ilə həyata keçirilməlidir. Qanunvericilik barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanmış hüquqi şəxsin üzərinə müvafiq qərarın surətini

aldıqdan 24 saat sonra nümayəndə təyin etmək və bu barədə cinayət təqibi orqanına məlumat vermək vəzifəsi qoymuşdur. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.31-1-ci maddəsinə əsasən barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi – hüquqi şəxsin maraqlarını təmsil edən, səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsi hesab olunur.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.6-cı maddəsinə əsasən yuxarıda göstərilən müddət ərzində hüquqi şəxsin nümayəndəsi təyin edilmədikdə müstəntiq Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 7.0.31-1-ci maddəsində müəyyən edilmiş şəxslərdən hər hansı birinin hüquqi şəxsin nümayəndəsi kimi tanınması barədə qərar qəbul edir və onun surətini dərhal hüquqi şəxsə göndərir.

Hüquqi şəxs həmin nümayəndəni icraatın istənilən mərhələsində dəyişmək hüququna malikdir.

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat hüquqi şəxsin nümayəndəsinin iştirakı ilə həyata keçirilməlidir.

Cinayət qanunvericiliyi hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinin mümkünlülük şərtlərini, cinayət-prosessual qanunvericilik isə həmin şərtlərin mövcudluğunun müvafiq icraat zamanı sübut edilməsi vəzifəsini müəyyən edir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-4-cü maddəsinə əsasən müvafiq icraat zamanı aşağıdakı hallar müəyyən edilməlidir:



1) **cinayətin hüquqi şəxsi təmsil etmək, onun adından qərarlar qəbul etmək və ya onun fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, yaxud həmin vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi tərəfindən törədilməsini təsdiq edən hallar**- Əvvəlki fəsildə də qeyd olunduğu kimi, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinin mümkünlülük şərtlərindən biri cinayətin dairəsi Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilmiş şəxslərdən hər hansı biri (bəzən bir neçəsi) tərəfindən törədilməsidir. Cinayət-prosessual qanunvericilik cinayət əməlinin həmin şəxslər tərəfindən törədilməsinin sübut edilməsini icraatın vəzifəsi kimi müəyyən edilmişdir.



2) **cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilməsini təsdiq edən hallar**- Qanunun mənasına görə cinayət Azərbaycan Respublikası CM-nin 99-4-cü maddəsi ilə müəyyən edilmiş şəxslərdən hər hansı biri tərəfindən törədilsə belə, hüquqi **şəxsin xeyrinə və ya onun maraqlarının qorunması məqsədilə törədilməmişdirsə, hüquqi şəxsin məsuliyyəti və barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi istisna edilir.** Cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilməsini təsdiq edən hər hansı mötəbər sübut əldə edilmədikdə, məsuliyyət fərdi xarakter daşımalı, yəni cinayət prosesini həyata keçirən orqan fiziki şəxsin məsuliyyət məsələsini həll etməlidir.

3) **hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri edən hallar-** Qanunverici bu cür halların konkret dairəsini müəyyən etməsə də, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri edən hallara analoji hüquq pozuntularından çəkindirmək, hüquq pozuntusuna adekvat reaksiyanın verilməsinin nümayiş etdirilməsi kimi məqsədlərin məcmusu aiddir. Hesab edirik ki, hüquq pozuntusundan çəkindirmək məqsədilə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini mümkün hesab edən şərtlər olduqda, eləcə də, hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsini tələb edən hallar olmadıqda, hüquqi şəxslər barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiq olunması zəruridir.

4) **Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin və cinayət qanununun normalarına əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsini zəruri edən hallar-** Qanunverici belə halların konkret dairəsini müəyyən etməsə də, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsini zəruri edən hallara hüquqi şəxsin cinayət-hüquqi tədbirlərin tətbiqindən azad edilməsini və barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsinin mümkünlüyünü nəzərdə tutan, cinayət və cinayət-prosessual qanunvericiliklə bilavasitə nəzərdə tutulmuş hallar aiddir.

Həm hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri edən, həm də cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsini zəruri edən hallar işin konkret hallarına və mötəbər sübutlara istinad etməklə əsaslandırılmalı, mülahizələrə, şəxsi fikirlərə əsaslanmamalıdır.

5) **Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5.4-cü maddəsinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi seçilərkən nəzərə alınan hallar-** Həmin hallar cinayət qanunvericiliyi ilə bilavasitə nəzərdə tutulmuşdur. Həmin hallar icraat zamanı mötəbər sübutlar əsasında müəyyən edilməklə, məhkəmə tərəfindən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi müəyyən olunarkən nəzərə alınır.

Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi



Hüquqi şəxsin maraqlarının keyfiyyətli müdafiəsinin, cinayət mühakimə icraatında çəkişmə prinsipinin tələblərinin təmin edilməsi məqsədilə cinayət-prosessual qanunvericilik barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsə həm müdafiəçi, həm də nümayəndəyə malik olma imkanı yaradır.

Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-3.2-ci maddəsinə əsasən hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı hüquqi şəxsin maraqlarını yalnız bir nümayəndə təmsil edir. Hüquqi şəxsin maraqlarını nümayəndə statusuna malik olmayan bir və ya bir neçə müdafiəçi təmsil edə bilər. Göründüyü kimi qanun hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı onun maraqlarını təmsil edən nümayəndə üçün say məhdudiyyəti müəyyən etmiş, lakin eyni məqsədlə icraatda iştirak edən müdafiəçilərin sayı barədə hər hansı məhdudiyyət müəyyən etməmişdir. Odur ki, istinaq orqanı qanunun tələbinə əsasən qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verən yalnız bir şəxsi barəsində cinayət-hüquqi xarakterli tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi qismində tanımalı, eyni zamanda hüquqi şəxsin maraqlarının təmsil edilməsi məqsədilə icraatda iştirak etmək istəyini bildirən istənilən sayda müdafiəçiyə müvafiq şəraiti yaratmalıdır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-3.1-ci maddəsinə əsasən barəsində cinayət-hüquqi tədbirlərin tətbiq

edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi (bundan sonra – hüquqi şəxsin nümayəndəsi) qismində onun qanuni maraqlarını təmsil etmək üçün **notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan** (bu Məcəllənin 487-2.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) şəxs çıxış edir. Nəzərə alınmalıdır ki, həmin məcəllənin 7.0.31-1-ci maddəsinə əsasən barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi – **hüquqi şəxsin maraqlarını təmsil edən, səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsi** hesab olunur. Hər iki normanın təhlili nəticəsində aşağıdakı qənaətə gəlmək mümkündür:



Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi –

1) hüquqi şəxsin maraqlarını təmsil edən
2) səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən
3) hüquqi şəxsin nümayəndəsi qismində onun qanuni maraqlarını təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan
4) hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsi hesab olunur.

Yalnız yuxarıda göstərilən bütün şərtlərə cavab verən şəxs hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatda nümayəndə qismində iştirak edə bilər. Nəzərə alınmalıdır ki, hüquqi şəxsin nümayəndəsi məhdud şəxslər dairəsindən seçilməli və aşağıdakı şəxslərdən biri olmalıdır :

1. hüquqi şəxsin təsisçisi
2. hüquqi şəxsin rəhbəri
3. hüquqi şəxsin digər vəzifəli şəxsi

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-3.1-ci maddəsinə əsasən hüquqi şəxsin nümayəndəsi cinayət prosesini həyata keçirən orqana **şəxsiyyətini və səlahiyyətlərini təsdiq edən sənədləri** təqdim etməlidir. Müvafiq sənədləri təqdim etməyən şəxsin icraata buraxılmasına yol verilmir. Həmin sənədlərin, habelə hüquqi şəxsin nizamnaməsinin, dövlət qeydiyyatına alınması barədə sənədin surətləri cinayət təqibi ilə bağlı materiallara əlavə olunur. Cinayət-prosessual qanunvericilik hüquqi şəxsin nümayəndəsinin hüquq və vəzifələrini müəyyən edən ayrıca norma müəyyən etməsə də, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-3.1-ci maddəsinə əsasən hüquqi şəxsin nümayəndəsi yalnız fiziki şəxsə aid edilə bilən hüquq və vəzifələr istisna olmaqla, bu Məcəllə ilə təqsirləndirilən şəxs (məhkum) üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirir. Cinayət prosesini həyata keçirən orqan hüquqi şəxsin nümayəndəsinin öz hüquqlarından lazımi şəkildə istifadə edə bilməsi üçün zəruri tədbirləri həyata keçirməlidir.

Cinayət-prosessual qanunvericilik müvafiq icraat zamanı hüquqi şəxsin maraqlarının nümayəndə statusuna malik olmayan bir və ya bir neçə müdafiəçi tərəfindən təmsil edilməsinin mümkünlüyünü müəyyən etsə də, icraatda iştirak edən müdafiəçiyə münasibətdə hər hansı xüsusi şərt nəzərdə tutmamışdır. Bu baxımdan qeyd etmək mümkündür ki, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı hüquqi şəxsin maraqlarını təmsil edən müdafiəçi qismində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.1-ci maddəsində göstərilən şərtlərə cavab verən şəxs çıxış edə bilər. Belə ki, həmin maddəyə əsasən cinayət prosesində müdafiəçi qismində yalnız Azərbaycan Respublikasının ərazisində vəkillik fəaliyyətini həyata keçirmək hüququna malik olan vəkil iştirak edə bilər. Odur ki, hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı da hüquqi şəxsin müdafiəçisi qismində yalnız Azərbaycan Respublikasının ərazisində

vəkillik fəaliyyətini həyata keçirmək hüququna malik olan vəkil iştirak edə bilər. 29 noyabr 2016-cı il tarixdə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə edilmiş dəyişikliyə əsasən şübhəli və ya təqsirləndirilən şəxsin, *habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin* müdafiəsini öz öhdəsinə götürdükdə, müdafiəçi cinayət prosesini həyata keçirən orqana :

1) şəxsiyyətini
2) Azərbaycan Respublikasının ərazisində vəkillik fəaliyyətini həyata keçirmək hüququnu təsdiq edən sənədi
3) vəkil qurumunun orderini təqdim etməlidir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 92.7-ci maddəsində nəzərdə tutulmuş bu tələbin yerinə yetirilməməsi cinayət prosesini həyata keçirən orqanın hər hansı şəxsin cinayət prosesinə müdafiəçi qismində buraxılmasından imtina edilməsi haqqında əsaslandırılmış qərar çıxarması üçün əsasdır.

Qanunverici hüquqi şəxsin maraqlarının müdafiəsi, nümayəndənin bu cür müdafiədə effektiv iştirakının təmin edilməsi məqsədilə cinayət prosesini həyata keçirən orqan üçün bir sıra prosessual öhdəliklər müəyyən etmişdir. Belə ki, hüquqi şəxsin nümayəndəsi cinayət-prosessual qanunvericiliklə yalnız fiziki şəxsə aid edilə bilən hüquq və vəzifələr istisna olmaqla, Cinayət-Prosessual Məcəllə ilə təqsirləndirilən şəxs (məhkum) üçün nəzərdə tutulmuş bütün hüquqlara malik olduğundan, təqsirləndirilən şəxsin (məhkumun) məlumatlandırılması və qərarların surətinin verilməsi nəzərdə tutulmuş bütün hallarda hüquqi şəxsin nümayəndəsinin məlumatlandırılması və müvafiq qərarların surətinin verilməsini cinayət prosesini həyata keçirən orqanın vəzifəsi kimi müəyyən edilmişdir.

Qeyd olunmalıdır ki, cinayət-prosessual qanunvericilik hüquqi şəxsin nümayəndəsi :

1. cinayət prosesini həyata keçirən orqanın məcburi çağırışlarına üzürlü səbəb olmadan gəlmədikdə;
2. cinayət prosesini həyata keçirən orqanın çağırışlarını almaqdan boyun qaçırdıqda;
3. cinayət prosesini həyata keçirən orqandan gizləndikdə;
4. daimi yaşayış yeri olmadıqda.

onun istintaq orqanın əsaslandırılmış qərarı ilə məcburi gətirilməsinin mümkünlüyünü də nəzərdə tutmuşdur. Hüquqi şəxsin nümayəndəsi barəsində məcburi gətirilmə tətbiq olunarkən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş şərtlərə əməl edilməli, məcburi gətirilmə barədə qərar qəbul etmiş istintaq orqanı işin faktiki hallarına istinad etməklə, məcburi gətirilmənin tətbiqinin zəruriliyini öz qərarında əsaslandırmalıdır.

Hüquqi şəxsin nümayəndəsi barəsində məcburi gətirilmə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

Hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi


Qanunvericilik hüquqi şəxslər hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi üçün 2 əsas hüquqi vasitə müəyyən etmişdir :

hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə onların **əmlakı üzərinə həbs qoyula**, eləcə də, hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi **məhkəmə qərarı ilə qadağan oluna bilər.**

1) hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması
2) hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsinin məhkəmə qərarı əsasında qadağan olunması

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.1-ci maddəsinə əsasən hüquqi şəxslərin əmlakı üzərinə həbs qoyulması əmlak üzərinə həbs qoyulmasının ümumi qayda və şərtlərini nəzərdə tutan həmin məcəllənin 248-254-cü maddələrinə əsasən həyata keçirilir. Həmin müddəaya əsaslanaraq hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulmasına aşağıdakı kimi anlayış vermək mümkündür:

"Hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması- onun əmlakının siyahıya alınmasından, həmin əmlak üzərində sərəncam verilməsinin, zəruri hallarda isə həmin əmlakdan istifadə edilməsinin qadağan edilməsindən ibarətdir."



Hüquqi şəxslər barəsində əmlak üzərinə həbs qoyulması zamanı nəzərə alınmalı ən mühüm hal Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248.5-ci maddəsində nəzərdə tutulmuş haldır. Həmin maddəyə əsasən idarə, müəssisə və təşkilatların təsərrüfat fəaliyyətinə xələl gətirmədən mülkiyyətin ayrıla bilən hissəsi istisna olmaqla, onların əmlakı üzərinə həbs qoyula bilməz. Bu baxımdan idarə, müəssisə və təşkilatların əmlakları üzərinə həbs qoyulması zamanı, həmin əmlakın onların təsərrüfat fəaliyyətinə xələl gətirmədən mülkiyyətin ayrıla bilən hissəsinə aid olması əsaslandırılmalıdır.





Hüquqi şəxslərin əmlakları üzərinə həbs Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248-254-cü maddələrində nəzərdə tutulmuş qaydada qoyulduğundan, həmin müddəalar əsasında aşağıdakı fikirləri irəli sürmək mümkündür :

Qanunvericiliyə əsasən hüquqi şəxslərin əmlakı üzərinə həbs bir qayda olaraq məhkəmə qərarı əsasında qoyulur. Məhkəmə hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması barədə müstəntiqin vəsatəti, prokurorun təqdimatı əsasında müvafiq qərar qəbul edir. Müstəntiq müvafiq vəsatəti iş üzrə toplanmış ilkin sübutlara istinad etməklə, hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulmasının zərurətini əsaslandırmalıdır.

Təxirə salına bilməyən hallarda hüquqi şəxslərin əmlakı üzərinə həbs məhkəmənin qərarı olmadan da qoyula bilər. Belə olan halda Azərbaycan Respublikası CPM-nin 443.2-ci maddəsində nəzərdə tutulmuş tələblər yerinə yetirilməlidir.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 249.5-ci maddəsinə əsasən təxirə salına bilməyən hallarda cinayət törətmiş şəxs tərəfindən əmlakın və ya cinayət yolu ilə əldə edilmiş əşya və vasitələrin məhv edilməsini, zədələnməsini, korlanmasını, gizlədilməsini və ya verilmiş mülki iddianın təmin edilməsi hesabına özgəninkiləşdirilməsini güman etməyə əsas verən dəqiq məlumat olduqda, müstəntiq məhkəmənin qərarı olmadan 177.2—177.5-ci maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirildikdə əmlak üzərinə həbs qoya bilər.

Göstərilən müddəa Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.1-ci maddəsinə əsasən hüquqi şəxslərin əmlakı üzərinə həbs qoyulması zamanı da tətbiq oluna bilər. Bu zaman nəzərə alınmalıdır ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 443.2-ci maddəsinin tələbinə əsasən məhkəmə qərarı olmadan həmin məcəllənin 177.3.3-cü maddəsində nəzərdə tutulmuş istintaq hərəkətini (əmlak üzərinə həbs qoyulması, o cümlədən, hüquqi şəxsin əmlakı üzərinə həbs qoyulması) həyata keçirmiş müstəntiq bu barədə 24 saat müddətində məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora məlumat verməli, 48 saat müddətində isə aparılmış istintaq hərəkətinin qanuniliyinin yoxlanılması üçün həmin istintaq hərəkətinə aid materialları məhkəmə nəzarətini həyata keçirən məhkəməyə və ibtidai

araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora təqdim etməlidir.

Hüquqi şəxs barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə onun əmlakı üzərinə həbs qoyulması zamanı Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 248-254-cü maddələrində nəzərdə tutulmuş digər bütün tələblər yerinə yetirilməlidir.

Hüquqi şəxslər hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsinin məhkəmə qərarı əsasında qadağan oluna bilər. Qanunvericilik müstəsna hallarda hüquqi şəxsin əmlakı üzərinə həbsin müstəntiq tərəfindən qoyulmasının mümkünlüyünü müəyyən etsə də, hüququ şəxsin yenidən təşkil olunmasının və ləğv edilməsinin qadağan edilməsini **məhkəmənin müstəsna səlahiyyəti** kimi müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.2-ci maddəsinə əsasən barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında, habelə məhkəmənin öz təşəbbüsü ilə və **yalnız məhkəmənin qərarına əsasən** həmin Məcəllənin 446-448-ci maddələrində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Qanunun mənasına görə hüquqi şəxsin yenidən təşkil edilməsinin və ləğv edilməsinin qadağan edilməsi, həm müstəntiqin əsaslandırılmış vəsatəti, həm də məhkəmənin öz təşəbbüsü əsasında və yalnız məhkəmənin qərarı əsasında real maddi və prosessual əsaslar olduqda həyata keçirilə bilər.

Qanunvericiliyin tələbinə əsasən müvafiq vəsatəti almış ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror 24 saat müddətində müvafiq qərarın qəbul edilməsi barədə təqdimatı məhkəməyə verməli və ya vəsatətin müdafiə edilməsindən imtina haqqında əsaslandırılmış qərar çıxarmalıdır. Daxil olmuş vəsatətə məhkəmə tərəfindən 48 saat müddətində baxılmalı və müvafiq qərar qəbul edilməlidir. Qanunvericilik məhkəmə tərəfindən qəbul edilmiş qərardan apellyasiya şikayət və protestinin verilməsinin, eləcə də, hüquqi şəxsin ye-

nidən təşkil edilməsinin və ləğv edilməsinin qadağan edilməsinin zəruriliyini təsdiq edən yeni hallar aşkar edildikdə məhkəməyə təkrar müraciət edilməsinin mümkünlüyünü müəyyən edir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.2-ci maddəsinə əsasən hüquqi şəxsin yenidən təşkil edilməsinin və ya ləğv olunmasının qadağan edilməsi barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir. Eyni zamanda qeyd olunmalıdır ki, cinayət-prosessual qanunvericiliyin digər qanunvericilik aktları ilə uyğunluğunun təmin edilməsi məqsədilə 9 iyul 2019-cu il tarixli qanunla Azərbaycan Respublikası Mülki Məcəlləsinə aşağıdakı məzmunda 55.7-ci maddə əlavə edilmişdir



"Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin yenidən təşkil olunması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin yenidən təşkil edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir" (burada müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi; kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi; dini qurumlara münasibətdə Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yerinə yetirir).

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə əsasən aşağıdakı hallarda hüquqi şəxslər barəsində tətbiq edilmiş cinayət-hüquqi xarakterli tədbirlər qüvvədən düşmüş sayılır:

1) qanunvericiliklə nəzərdə tutulmuş hallarda hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verildikdə,
2) bəraət hökmü çıxarıldıqda
3) hüquqi şəxs barəsində tətbiq olunan cinayət-hüquqi tədbir icraya yönəldildikdə

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatın qurtarması



Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.1-ci maddəsinə əsasən toplanmış sübutları hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraatın qurtarması üçün kifayət hesab edən müstəntiq ittiham aktının tərtib edilməsi və cinayət işinin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi qaydalarını nəzərdə tutan həmin məcəllənin 284-290-cı maddələrində nəzərdə tutulmuş tələbləri yerinə yetirməlidir. Qanunvericiliyin tələbinə əsasən müstəntiq ibtidai istintaqın qurtarması barədə dairəsi qanunvericiliklə müəyyənləşdirilmiş cinayət prosesi iştirakçılarına məlumat verməli, həmin şəxslər cinayət işinin materialları ilə tanış olduqdan sonra, hər hansı vəsatətləri olduğu halda vəsatətləri müvafiq qaydada həll etməli, bundan sonra ittiham aktını tərtib edərək təsdiq edilməsi üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir.

Cinayət-prosessual qanunvericilik hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya



təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq bir icraatda aparıldığı hallarda, cinayət işi üzrə tərtib edilmiş ittiham aktı üçün bir sıra spesifik tələblər müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsinə əsasən müvafiq ittiham aktına aşağıdakı məlumatlar daxil edilməlidir :

1) İttiham aktına hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar daxil edilməlidir. (Həmin hallar CPM-nin 487-4.0.1-487-4.0.5-ci maddəsində göstərilmiş və metodik vəsaitin 5-ci fəslində təhlil edilmişdir.)
2) İttiham aktında hüquqi şəxsin adı, olduğu yer, təşkilati-hüquqi forması, onun dövlət qeydiyyatını aparmış dövlət orqanının adı, qeydiyyat tarixi və nömrəsi qeyd edilir.

Hesab edirik ki, cinayət-prosessual qanunvericilikdə bilavasitə öz əksini tapmasa da, hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq bir icraatda aparıldığı hallarda cinayət işi üzrə tərtib edilmiş ittiham aktının həmin məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş tələblərə uyğun olmaması cinayət işinin məhkəmə tərəfindən baxılmasına xitam verilərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata prokurora qaytarılması üçün əsas kimi qiymətləndirilə bilər. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 303.3.6-cı maddəsinə əsasən cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq həmin məcəllənin **289 və 290.3.2-ci** maddələrinin və ya **296.2-ci** maddəsinin tələblərinə uyğun olmaması məhkəmənin hazırlıq iclası zamanı cinayət işinin baxılmasına xitam verilərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması üçün əsasdır. Həmin müddəa ittiham aktının Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsinə uyğun olmadığı halı bilavasitə nəzərdə tutmamışdır. Hesab edirik ki, bu 487-

6.2-ci maddənin Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinə sonradan, yəni 29 noyabr 2016-cı il tarixli qanunla əlavə edilməsi ilə əlaqədardır. Bu səbəbdən də subyektiv yanaşma hallarının qarşısının alınması məqsədilə ittiham aktının Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsinə uyğun olmadığı hallarda işin məhkəmə tərəfindən baxılmasına xitam verilərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmasının mümkünlüyü barədə müddəanın Cinayət-Prosessual Məcəllənin 303-cü maddəsinə daxil edilməsi məqsədəmüvafiqdir.

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat cinayət işi üzrə ittiham aktının ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi, eləcə də, qanunvericiliklə nəzərdə tutulmuş hallar və əsaslar olduqda icraata xitam verilməsi ilə qurtarır. Qanunvericiliyə əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata aşağıdakı hallarda xitam verilir :

1) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.1-39.1.3-cü, 39.1.6-39.1.8-ci və ya 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə;
2) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-4.0.1-487-4.0.3-cü maddələrində nəzərdə tutulmuş hallar təsdiq edilmədikdə;
3) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-4.0.4-cü maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə.

Əvvəlki fəsillərdə də qeyd olunduğu kimi "Hüquq şəxslərin məsuliyyəti" institutu milli qanunvericiliyə daxil edilərkən, "fiziki və hüquqi şəxslərin məsuliyyətinin fərdiliyi" prinsipi rəhbər tutulmuşdur. Buna baxmayaraq, 1-ci bənddə qeyd olunduğu kimi, qanunverici müəyyən hallarda hüquqi şəxsin məsuliyyət məsələsini fiziki şəxsin məsuliyyətindən asılı şəkildə həll edilməsini nəzərdə tutmuşdur. Belə ki, qanunvericiliyin tələbinə əsasən fiziki şəxs barəsində cinayət işinə :

1) cinayət hadisəsi olmaması
2) əməlində cinayət tərkibi olmaması
3) cinayət məsuliyyətinə cəlbetmə müddətlərinin keçməsi (cinayət məsuliyyətinə cəlbetmə müddətinin dayandırılması halları istisna edilməklə)
4) şəxs barəsində eyni ittiham üzrə məhkəmənin qanuni qüvvəyə minmiş hökmü və ya digər məhkəmənin cinayət təqibini qeyri-mümkün edən ləğv edilməmiş qərarının olması
5) şəxs barəsində eyni ittiham üzrə təhqiqatçının, müstəntiqin və ya prokurorun cinayət işi başlanmasının rədd edilməsi və ya ona xitam verilməsi haqqında ləğv edilməmiş qərarının olması
6) zərərçəkmiş şəxsin şikayətinin olmaması

əsasları ilə xitam verildikdə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata da xitam verilməlidir.

Qanunvericiliyə əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar cinayət işi üzrə icraata xitam verilməsinin ümumi qaydaları əsasında qəbul edilir. Müvafiq qərar cinayət prosesi iştirakçılarına göndərilməklə, onlara həmin qərardan şikayət edilmə hüququ və qaydası müfəssəl şəkildə izah olunmalıdır. Bundan əlavə istintaq orqanı cinayət prosesi iştirakçılarının icraatına xitam verilmiş cinayət işinin materialları ilə tanış olmaq hüququna malik olmalarını nəzərə almalı və həmin hüququ Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 284—286-cı maddələrində nəzərdə tutulmuş qaydada təmin etməlidir.

İstintaq orqanı nəzərə almalıdır ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə həmin məcəllənin 39.1.5, 39.10-39.1.12-ci və 40.2-ci maddələri ilə xitam verilməsi hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinə mane olmur və cinayət-prosessual qanunvericiliklə müəyyənləşdirilmiş əsaslar mövcud olduqda müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir. Həmin qərar hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə

tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq bir icraatda aparıldığı hallarda, cinayət işi üzrə tərtib edilmiş ittiham aktı üçün qanunvericiliklə müəyyən edilmiş tələblərə riayət edilməklə tərtib edilir və qərarda hüquqi şəxsin adı, olduğu yer, təşkilati-hüquqi forması, onun dövlət qeydiyyatını aparmış dövlət orqanının adı, qeydiyyat tarixi və nömrəsi öz əksini tapmalıdır. Cinayət-prosessual qanunvericiliklə bilavasitə öz əksini tapmasa da, hesab edirik ki, həmin qərarın Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsinin tələblərinə uyğun olmaması, cinayət işinin məhkəmə tərəfindən baxılmasına xitam verilərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması üçün əsas kimi qiymətləndirilə bilər. Belə ki, həmin qərar cinayət-prosessual qanunvericiliyin müddəalarına əsasən ittiham aktı ilə bərabər hüquqi qüvvə və statusa malikdir. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul etmiş müstəntiq Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin cinayət prosesi iştirakçılarının iş materialları ilə tanış edilməsi barədə tələbləri yerinə yetirdikdən sonra toplanmış materialı ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərməlidir.

İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ittiham aktı ilə daxil olmuş cinayət işini 5 gün ərzində Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 290.2-ci maddəsində nəzərdə tutulmuş halları yoxlamaqla öyrənməli, nəticəsindən asılı olaraq həmin məcəllənin 290.3-cü maddəsində nəzərdə tutulmuş qərarlardan hər hansı birini qəbul etməlidir.

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının xüsusiyyətləri



Cinayət-prosessual qanunvericiliklə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının hər hansı spesifik xüsusiyyəti müəyyən edilməmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-1.1-ci maddəsinə əsasən hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışı bu Məcəllənin 298-358-ci maddələri ilə müəyyən edilmiş qaydada aparılır. Buna baxmayaraq cinayət-prosessual qanunvericilik hüquqi şəxsin maraqlarının etibarlı müdafiəsinin təmin edilməsi məqsədilə müvafiq məhkəmə baxışında hüquqi şəxsin nümayəndəsinin iştirakı ilə bağlı imperativ tələblər müəyyən etmişdir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-1.1-ci maddəsinə əsasən hüquqi şəxsin nümayəndəsi hüquqi şəxsin hüquq və qanuni mənafelərinin müdafiəsi məqsədi ilə məhkəmə baxışı zamanı məhkəmə iclaslarında iştirak edir. Hüquqi şəxsin nümayəndəsi məhkəmə iclasına gəlmədikdə, məhkəmə baxışı təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir. Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə

görə təkrarən gəlməməsi məhkəmə baxışının davam etdirilməsinə mane olmur, bu halda müdafiəçinin məhkəmə iclasında iştirakı məcburidir. Qanunun mənasına görə hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına ilk dəfə gəlməməsi müvafiq məhkəmə baxışının təxirə salınmasını və məhkəmə iclasının başqa vaxta keçirilməsini məcburi edir. Bu zaman hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrlü və ya üzrsüz səbəbdən gəlməməsi, məhkəmə iclasında iştirak edə bilməyəcəyi barədə məhkəməyə əvvəlcədən məlumat verib verməməsi əhəmiyyət kəsb etmir və məhkəmə baxışı məcburi qaydada təxirə salınır.

Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə görə təkrarən gəlməməsi məhkəmə baxışının davam etdirilməsini **istisna etmir.**

Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə görə təkrarən gəlməməsi məhkəmə baxışının davam etdirilməsini istisna etmir. Lakin belə hallarda hüquqi şəxsin məhkəmə iclasında iştirak etməməsi üzrsüz səbəblərdən baş verməlidir. Məhkəmə hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına gəlməməsinin səbəblərini üzrsüz hesab edərək, məhkəmə baxışının onun iştirakı olmadan davam etdirilməsini mümkün saya bilər. Cinayət-prosessual qanunvericilik bu halda həmin iclasda müdafiəçinin iştirakını məcburi hesab edir.

Hesab edirik ki, həmin normalarda müəyyən dəqiqləşdirilmənin aparılması zəruridir. Belə ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-3.2-ci maddəsində "hüquqi şəxsin maraqlarını nümayəndə statusuna malik olmayan bir və ya bir neçə müdafiəçi təmsil edə bilər." müddəası öz əksini tapmış, qanunvericilik bununla da hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müdafiəçinin iştirakının məcburi olmadığını təsbit etmişdir. Yəni hüquqi şəxs müdafiəçiyə malik olmaq hüququ olsa da, qanunun mənasına görə bu hüququn realizəsi imperativ xarakter daşımır. Cinayət-prosessual qanunvericilik isə, hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə görə təkrarən gəlmədiyi, hüquqi şəxsin isə müdafiəçiyə malik olmadığı hallarda məhkəmənin hansı mövqedən çıxış etməli olduğunu müəyyən etməmişdir. Bu baxımdan belə hesab edirik ki, məhkəmənin göstərilən hallarda müdafiəçinin iştirakını öz qərarı əsasında (müvafiq

hallarda dövlət hesabına) təyin etmək hüququnu müəyyən edən normanın qanunvericiliyə daxil edilməsi məqsədəmüvafiqdir.

Qanunvericiliyə əsasən məhkəmə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini sübuta yetirilmiş hesab etdikdə, məhkəmə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi haqqında, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.3-cü maddəsində nəzərdə tutulmuş hallarda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul etməlidir. Müvafiq qərarlardan apellyasiya protesti və şikayətinin verilməsinin mümkünlüyü, həmin prosesin qayda və şərtləri isə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 384-cü maddəsi ilə müəyyən edilmişdir.

FƏSİL 7.Hüquqi şəxslərin məsuliyyətə cəlb olunması sahəsində mövcud təcrübə və təkliflər



Hüquqi şəxsin cinayət məsuliyyəti institutu milli qanunvericilik üçün yeni olsa da, Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunma prosesini tənzimləyən qanunverici normaların təcrübədə işləkliyinin və qanunvericiliklə müəyyən olunmuş əsaslar olduğu təqdirdə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiqinin təmin edilməsi məqsədilə zəruri işlər görülmüşdür.

Belə ki, Baş İdarənin İstintaq idarəsində 2019-cu il ərzində 3, 2020-ci il ərzində isə 2 hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat aparılaraq, hüquqi şəxs və onun rəhbəri məhkəmə məsuliyyətinə verilmişdir.

“Young Business Factory” MMC

Həmin cinayət işi “Young Business Factory” MMC-nin təsisçisi və direktoru R.A.-nın Kanada, Amerika Birləşmiş Ştatları və Böyük Britaniyaya ödənişli iş təcrübə proqramı üçün viza alacağını vəd edərək ayrı-ayrı şəxsləri aldatmaqla ümumilikdə 55.600 ABŞ dolları məbləğində pul vəsaitini ələ keçirməsi ilə bağlı daxil olmuş müraciətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma nəticəsində 27.02.2019-cu il tarixdə Azərbaycan Respublikası CM-nin 178.2.2, 178.3.2 və 308.2-ci maddələri ilə başlanaraq istintaq olunmuşdur.

İstintaq zamanı Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487.4-cü maddəsinin tələblərinə əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar araşdırılmışdır.


R.A.-nın “Young Business Factory” MMC-nin adından istifadə edərək ayrı-ayrı şəxsləri cəlb etməsi və məhz şəxslərin həmin müəssisənin fəaliyyəti ilə bağlı sosial şəbəkələrdə aparılan reklamla əlaqədar həmin cəmiyyətə müraciət etmələri və bu yolla R.A.-nın 49 şəxsi aldatmağa nail olması, Rasim Adjalov tərəfindən gələcəkdə qeyd edilən hüquqi şəxsin adından istifadə edilməklə çoxsaylı fiziki və ya hüquqi şəxslərin yenidən aldadılması və nəticədə onlara ziyan vurulmasının qarşısının alınması məqsədilə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri etmişdir.

İstintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş, yəni hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildiyindən müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması barədə əsaslandırılmış vəsatətinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən hüquqi şəxs “Young Business Factory” MMC barəsində cinayət hüquqi tədbirlərin tətbiq edilməsi barədə 18.06.2019-cu il tarixli qərar qəbul edilmiş və cinayət işi baxılması üçün aidiyyəti məhkəməyə göndərilmişdir.

“Vergi və Mühasibatlıq” MMC

Həmin cinayət işi “Vergi və Mühasibatlıq” MMC-nin vəzifəli şəxslərinin özlərini Azərbaycan Respublikası Vergilər Nazirliyinin əməkdaşı kimi təqdim edərək ticarət obyektlərində aşkar etdikləri qanun pozuntularının rəsmiləşdirilməməsi adı altında müxtəlif vaxtlarda müxtəlif şəxslərdən pul almaları barədə müraciətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma nəticəsində 18 mart 2019-cu il tarixdə Azərbaycan Respublikası CM-nin 178.2.4, 310 və 32.4,312.1-ci maddələri ilə başlanaraq istintaq olunmuşdur.

İstintaq zamanı müəyyən olunmuşdur ki, H.S-nın “Vergi və Mühasibatlıq Xidmətləri” MMC-ni yaratmaqda məqsədi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq olmamış, istintaq zamanı onun həmin cəmiyyəti cinayətkar əməllərini pərdələmək məqsədilə formal olaraq yaratması faktı mötəbər sübutlar əsasında sübuta yetirilmişdir.





Gələcəkdə qeyd edilən hüquqi şəxsin adından istifadə edilməklə çoxsaylı fiziki və ya hüquqi şəxslərin yenidən aldadılması və nəticədə onlara ziyan vurulmasının qarşısının alınması məqsədilə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi zəruri hesab edilmişdir.

İstintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş, yəni hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildiyindən müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora verdiyi hüquqi şəxs

barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması barədə əsaslandırılmış vəsatətinə əsasən hüquqi şəxs "Vergi və Mühasibatlıq Xidməti" MMC barəsində cinayət hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında 22.10.2019-cu il tarixli qərar qəbul edilmiş və cinayət işi baxılması üçün aidiyyəti məhkəməyə göndərilmişdir.

"Rons Build" MMC



Həmin cinayət işi 10.06.2019-cu il tarixdə "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.3.1 və 320.1-ci maddələrindən həmin Məcəllənin 308.1, 311.3.1 və 320.1-ci maddələrinə tövsif edilmiş və istintaq aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilmişdir.

İstintaq zamanı Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487.4-cü maddəsinin tələblərinə əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar araşdırılmışdır.

İstintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1–99-4.6-cı maddələrində nəzərdə tutulmuş, yəni hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildiyindən müstəntiqin vəsatəti əsasında 09.12.2019-cu il tarixdə hüquqi şəxs "RONS-BUİLD" MMC barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması haqqında qərar qəbul edilmiş və cinayət işi baxılması üçün aidiyyəti məhkəməyə göndərilmişdir.

“Dövlət-NTD” MMC

Həmin cinayət işi “Dövlət Nəzarət Təhlükəsizlik Departamenti” MMC-nin Bakı Regional Texniki Təhlükəsizlik İdarəsinin rəisi S.H-nın işə götürülən şəxslərə həmin Cəmiyyətinin dövlət idarəsi olması adı ilə işçilərin gündəlik olaraq təhkim olunmuş ərazi üzrə fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə məxsus iaşə, xidmət, istehsalat və ticarət obyektlərinə qanunsuz olaraq baxış keçirməsi barədə tapşırıqlar verməsi, cəmiyyətin əməkdaşları tərəfindən obyekt sahəsindən asılı olaraq guya xidmət müqaviləsi bağlanması adı altında onlardan pul vəsaitləri toplanması, işçilərin işə qəbul olunmaları üçün pul verələri barədə müraciətlər əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma nəticəsində 10 sentyabr 2019-cu il tarixdə Azərbaycan Respublikası CM-nin 308.1 və 311.1-ci maddələri ilə başlanaraq istintaq olunmuşdur.

İstintaq zamanı S.H-nın “Dövlət-NTD” MMC-ni yaratmaqda məqsədinin həqiqətən də, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq deyil, formal olaraq həmin cəmiyyəti cinayətkar əməllərini pərdələmək olması kifayət qədər sübuta yetirilmişdir.

İstintaq zamanı Azərbaycan Respublikası CM-nin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş, yəni hüquqi şəxsi təmsil etmək səlahiyyətinə malik olan vəzifəli şəxs tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildiyindən hüquqi şəxs “Dövlət-NTD” MMC barəsində Azərbaycan Respublikası CM-nin 311.3.2 və 313-cü maddələrinə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat başlanması haqqında 13.01.2020-ci il tarixli qərar qəbul edilmiş və cinayət işi baxılması üçün aidiyyəti məhkəməyə göndərilmişdir.

“Fakt Araşdırıcı-N” MMC

Həmin cinayət işi “Fakt Araşdırıcı-N” MMC-nin əməkdaşları S.H, F.İ və qeyrilərinin 2018-2019-cu illərdə ölkənin müxtəlif ərazilərində yerləşən hüquqi və fiziki şəxslərə məxsus iaşə, xidmət, istehsalat və ticarət obyektlərinə xidmət haqqında müqavilə, eləcə də, sahibkarların icazəsi olmadan daxil olaraq, özlərini Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları kimi təqdim edib yoxlama apardıqlarını və nöqsanlara görə cərimə edəcəklərini bildirməklə, sahibkarlardan xidmət haqqı



adı ilə 10 manatdan 120 manatadək müxtəlif məbləğdə pul vəsaitlərini almaları barədə Qida Təhlükəsizliyi Agentliyindən daxil olmuş müraciət əsasında 3 fevral 2020-ci il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası CM-nin 308.1 və 310-cu maddələri ilə başlanaraq istintaq edilmişdir.

İstintaq zamanı müəyyən edilmişdir ki, təqsirləndirilən şəxs Z.M "Fakt Araşdırıcı-N" MMC-nin təsisçisi və direktoru olmaqla onun fəaliyyətinə rəhbərlik və nəzarət etmiş, vəzifəli şəxs qismində xidməti vəzifəsinin icrası ilə əlaqədar edəcəyi hərəkətə görə özü üçün birbaşa və dolayı yolla, şəxsən və vasitəçidən istifadə etməklə maddi neməti rüşvət qismində təkrarən istəyərək almış, cinayət yolu ilə əldə edildiyini bilə-bilə öz qulluq mövqeyindən istifadə etməklə pul vəsaitləri və ya digər əmlakın əldə edilməsinin həqiqi mənbəyini gizlətmək məqsədilə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərindən istifadə etməklə maliyyə əməliyyatları həyata keçirib cinayət yolu ilə əldə edilmiş pul vəsaitini təkrarən leqallaşdırmış, vəzifəli şəxs tərəfindən tamah niyyətilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil edərək təkrarən vəzifə saxtakarlığı törətmişdir.

Gələcəkdə qeyd edilən hüquqi şəxsin adından istifadə edilməklə çoxsaylı fiziki və ya hüquqi şəxslərin yenidən aldadılması və nəticədə onlara ziyan vurulmasının qarşısının alınması məqsədilə hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi zəruri hesab edilmişdir.

Qeyd edilənlərə əsasən, 01.06.2020-ci il tarixdə "Fakt Araşdırıcı-N" MMC barəsində Azərbaycan Respublikası CM-nin 311.3.2, 193-1.2.2, 193-1.2.3 və 313-cü maddələrinə münasibətdə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar qəbul edilmiş, 19 iyun 2020-ci il tarixdə iş üzrə tərtib edilmiş ittiham aktı təsdiq edilərək cinayət işi aidiyyəti üzrə baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

Məsuliyyətə cəlb olunmuş bəzi məşhur hüquqi şəxslər

"SİEMENS AG"



Avropanın ən böyük şirkətlərindən biri olan və təxminən 385000 nəfərin işlə təmin olunduğu "SİEMENS AG" şirkəti dünyanın ən səs-küylü korrupsiya istintaqlarından birinə cəlb olunmuşdur. Belə ki, şirkət 2008-ci ilin dekabr ayında ABŞ Ədliyyə Departamenti (ƏD), ABŞ Qiymətli Kağızlar və Birja Komissiyası (QKBK) və Münhen Prokurorluğu ilə təqsirli hesab olunma barədə razılıq əldə etmişdir.

Məsələ 2006-cı ildə Almaniyada hüquq mühafizə orqanlarının "Siemens AG" şirkətinin ofislərində və səlahiyyətli rəhbərlərinin evlərində axtarış əmrlərini icra etdiyi zaman üzə çıxmışdır. Alman hüquq mühafizə orqanlarının axtarışlarından sonra "Siemens AG" şirkəti könüllü şəkildə öz fəaliyyətlərini ABŞ Ədliyyə Departamentinə və ABŞ QKBK-a açıqlamış və həm Almaniyada, həm də ABŞ-da hüquq mühafizə orqanları ilə tam əməkdaşlığa razı olmuşdur. ABŞ ƏD Siemens AG, Siemens SA (Argentina), Siemens Bangladesh Ltd və Siemens SA (Venesuela) ilə əlaqədar dörd ayrı ittiham irəli sürmüşdür. Bundan əlavə, ABŞ QKBK Siemens AG7 şirkətinə qarşı mülki məhkəmə işi qaldırmışdır, burada ABŞ ƏD-nin Siemens S.A. Argentina, Siemens Bangladesh Limited və Siemens S.A. Venezuela şirkətlərinə qarşı işlərində qeyd edilən layihələrlə əlaqəli xarici məmurlara rüşvət verilməsi iddialarına yer verilmiş, əlavə olaraq, QKBK-nin Vyetnam, İsrail, Meksika, Nigeriya, Çin və Rusiyada korrupsiya təşəbbüslərinə dair iddiası irəli sürülmüşdür.

Siemens AG 1977-ci ildə qəbul edilmiş Xarici Korrupsiya Fəaliyyətləri Aktının (XKFA) şərtlərinə əsasən baş kitab və qeydiyyatlar və daxili nəzarət maddələrini pozduğu üçün, Argentina bir qanunsuz fəaliyyətə görə XKFA-nı pozduğuna görə, Bangladesh Ltd və Siemens SA (Venesuela) XKFA-nın rüşvətxorluq əleyhinə və baş kitab və qeydiyyatlar maddələrini pozduğuna görə təqsirli hesab edilmişdir. "Siemens AG" şirkətinin $448.5 milyon, Siemens Argentina, Venesuela və Banqladeş şirkətlərinin isə hər birinin $500,000 cərimə ödəməsi (ümumi maliyyə cəriməsi $450 milyon olmuşdur) və QKBK xərclərini ödəmək üçün $350 milyon mənfəət itkisini ödəməsi qərara alınmışdır. Almaniyada, şirkət öz ofislərinə və işçilərinə nəzarət edə bilmədiyinə görə €395 milyon və Siemens-in əvvəlki Rabitə Qrupunun mahiyyətcə eyni istintaqı ilə bağlı €201 milyon cərimə ödəməyə razılaşdı. Bu hüquqi istintaqlar ilə bağlı Almaniya dövlət qurumlarına ödənilən ümumi məbləğ €596 milyon olmuşdur. ABŞ və Almaniya məhkəmə araşdırmaları tərəfindən tətbiq edilən ümumi maliyyə cərimələri təxminən $1.6 milyard təşkil etmişdir. Maliyyə sanksiyalarından əlavə, Siemens şirkətindən 4 il müddətində müstəqil uyğunluğa nəzarət proqramı tətbiq etməsi tələb olunmuşdur.

"GENERAL MOTORS"





2014-cü ilin fevral ayında 1908-ci ildə əsası qoyulmuş, 1931-ci ildən 2008-ə qədər dünyanın ən böyük avtomobil istehsalçısı olmuş "General Motors"-un istehsal etdiyi bəzi avtomobil modellərinin idarə edilmə zamanı mühərrikin qəflətən sönməsinə səbəb olan, sükanın və

əyləclərin lazımi şəkildə işləməsinə və hava yastıqlarının açılmasına mane olan qüsurlu ehtiyat hissələri ilə təchiz edilməsi aşkar edilmişdir.

"General Motors" tərəfindən verilmiş rəsmi məlumata əsasən göstərilən nasazlıq 13 nəfərin ölümü ilə nəticələnən 31 yol nəqliyyat hadisəsinə səbəb olmuşdur. Buna baxmayaraq, həmin statistika ilə razılaşmayaraq, ölüm sayının daha çox olduğunu iddia edən şəxslər də var. Həmin il "General Motors" 26 milyondan çox avtomobilini müxtəlif səbəblərlə geri çağırmalı olmuş, eyni zamanda istehsal etdiyi avtomobillərlə törədilmiş qəzalar nəticəsində yaralanan və ölən şəxslərə kompensasiyaların ödənilməsi üçün 400 milyon dollarlıq fond yaratmışdır.

Bundan əlavə, həmin zaman qəzalarla əlaqədar "General Motors"-a qarşı bir neçə iddia qaldırılmış, baş vermiş qəzalara görə əlavə kompensasiyalar tələb edilmişdir.

Qeyd olunmalıdır ki, bu "General Motors"-un fəaliyyəti dövründə qarşılaşdığı ilk qalmaqallı hal olmamışdır. Belə ki, 2008-ci ilin mart ayında "General Motors" tərəfindən istehsal olunan "antifriz" məhsulunun (Dex-Cool coolant) tərkibində olan kimyəvi maddənin mühərrikin zədələnməsinə səbəb olması barədə iddia qaldırılmış, 35 milyona yaxın "General Motors" müştərisinin iddialarının ümumi məbləği 20 milyard dollara yaxın olmuşdur. Məhkəmə prosesi nəticəsində "General Motors" müştərilərinin iddiaları təmin edilmiş, onlar 400-800 dollar məbləğində birdəfəlik ödəmələr almışlar.

"PHILIP MORRIS"

Amerikanın ən məşhur şirkətlərindən biri olan "Philip Morris"-in məhsulları dünyanın 180-dən çox ölkəsində satılır. Həmin şirkətin ən məşhur məhsulu bir çox tütün istehlakçısının tanıdığı "Marlboro" adı ilə satılan siqaretlərdir.




2002-ci ildə “Philip Morris” şirkəti ağ ciyər xərçəngindən əziyyət çəkən bir qadın tərəfindən qaldırılmış iddia əsasında məsuliyyətə cəlb edilmişdir. Belə ki, qadın iddiasında xəstəliyinə siqaret istifadəsinin səbəb olduğunu, siqaret aludəçiliyinin isə şirkət tərəfindən siqaret istifadəsinin zərərləri barədə məlumatlandırılmaması səbəbindən yaranmasını göstərmişdir. Qadının iddiası təmin edilmiş, şirkət 28 milyard dollar məbləğdə cərimələnmiş, eləcə də, 850 min dollar məbləğdə kompensasiya ödəməli olmuşdur. “Philip Morris” şirkəti göstərilən qərarla razılaşmayaraq, apellyasiya şikayəti vermiş və 9 il sonra məbləğ 28 milyon dollara endirilmişdir.

“OWENS CORNING”

1935-ci ildə təsis olunmuş və hazırda dünyanın ən böyük kompozit istehsalçısı olan, dünyanın müxtəlif ölkələrindən 19000 işçinin işlədiyi Amerika Birləşmiş Ştatlarının “Owens Corning” firması 1998-ci ilin dekabr ayında istehsal etdiyi “asbest” məhsullarının xərçəngə və ölümə səbəb olması iddiası ilə razılaşaraq

1.2 milyard dollar həcmində təzminat ödəməli olmuşdur. Müvafiq prosesdə 176000 nəfər şəxs iştirak etmişdir.



Aparılmış tədqiqat nəticəsində qanunverici və təcrübi məsələlərlə əlaqədar hazırlanmış təkliflər

Hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunma prosesini tənzimləyən cinayət və cinayət-prosessual normaların, eləcə də, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilmələri sahəsində mövcud təcrübənin təhlili nəticəsində aşağıdakı təkliflər işlənib hazırlanmışdır :

1) Vəsaitin əvvəlki fəsillərində də göstərildiyi kimi publik hüquqi şəxslərin cinayət və inzibati məsuliyyət daşıyıb daşımaması, müsbət halda publik hüquqi şəxslərin məsuliyyətə cəlb olunma prosedurunu bilavasitə təsbit edən normalar cinayət və inzibati qanunvericiliklərlə müəyyən edilməmişdir. Hesab edirik ki, publik hüquqi şəxslərin fəaliyyətinin ictimai əhəmiyyəti, onların məsuliyyətə cəlb olunmasının mümkünsüzlüyünün və ya məsuliyyətə cəlb olunma üçün xüsusi prosedurun qanunvericiliklə təsbit olunmasını zəruri edir.

Odur ki, **Publik hüquqi şəxslərin qanunvericiliklə müəyyən edilmiş statusu nəzərə alınmaqla, onların inzibati və cinayət məsuliyyəti məsələsini bilavasitə tənzimləyən normaların qanunvericiliyə daxil edilməsi təklif olunur.**

2) Qüvvədə olan cinayət qanunvericiliyi hüquqi şəxs mütəmadi olaraq cinayətlərin törədilməsində istifadə edildikdə onun barəsində ləğv etmə qismində cinayət-hüquqi xarakterli tədbirin tətbiqini mümkün hesab edir. Qanunvericilikdə geniş istifadə olunmuş anlayış olsa da, “mütəmadilik” üçün hər hansı dəqiq

anlayış və ya meyar müəyyən edilməmişdir. Hesab edirik ki, qanunvericilikdə "mütəmadilik" üçün hər hansı təkmil anlayışın müəyyən edilməməsi, təcrübədə anlaşılmazlıqların yaranmasına, eyni normanın müxtəlif formada şərh edilməsinə səbəb ola bilər.

Odur ki, **"mütəmadilik" məfhumuna qanunvericiliklə anlayış verilməsi, "mütəmadilik" üçün konkret meyarların müəyyən edilməsi təklif olunur.**

3) Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-8.3-cü maddəsinə əsasən barəsində ləğv etmə qismində cinayət-hüquqi xarakterli tədbir tətbiq edilmiş hüquqi şəxs həmin Məcəllənin 99-6.4-cü maddəsində göstərilmiş məhdudiyyət nəzərə alınmaqla iki yüz min manat miqdarında cərimə edilir. Qanunun mənasına görə hüquqi şəxsi ləğv etmə cinayət-hüquqi tədbiri tətbiq olunarkən, əlavə cinayət-hüquqi tədbir qismində iki yüz min manat miqdarında cərimənin tətbiqi məcburi xarakter daşısa da, bu zaman həmin məbləğin hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil etməməsi nəzərə alınmalıdır. Göründüyü kimi cinayət qanunu hüquqi şəxslər barəsində ləğv etmə tətbiq edilərkən, əlavə cinayət-hüquqi tədbir qismində tətbiq edilən cərimənin tətbiqini həm məcburi hesab etmiş, həm də onun məbləği ilə əlaqədar məhdudiyyət müəyyən etmişdir. Hesab edirik ki, hüquqi şəxslərin iqtisadi fəaliyyətin əsas subyektlərindən biri hesab edilməsi, onların məsuliyyətə cəlb olunma prosesinin xüsusi həssaslıq və dəqiqliklə tənzimlənməsini zəruri edir. Buna baxmayaraq, qanunverici hüquqi şəxslər barəsində ləğv etmənin tətbiqi zamanı CM-nin 99-8.3-cü maddəsində nəzərdə tutulmuş məbləğin hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox hissəsini təşkil etdiyi hallarda məhkəmənin hansı mövqedən çıxış etməli olduğunu, o cümlədən daha az məbləğdə cərimə təyin etmək səlahiyyətini müəyyən etməmişdir.

Odur ki, **hüquqi şəxslər barəsində ləğv etmənin cinayət-hüquqi xarakterli tədbir kimi tətbiqi zamanı Cinayət Məcəlləsinin 99-8.3-cü maddəsində nəzərdə tutulmuş məbləğin hüquqi şəxsin əmlakının dəyərinin yarıdan çox**

hissəsini təşkil etdiyi hallarda məhkəmənin hüquqi şəxsin əmlak vəziyyəti nəzərə alınmaqla, daha az məbləğdə cərimə təyin etməsinin mümkünlüyünü nəzərdə tutan normanın qanunvericiliyə daxil edilməsi təklif olunur.

4) Cinayət-prosessual qanunvericiliyə əsasən hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar müstəntiqin əsaslandırılmış vəsatəti əsasında yalnız ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən qəbul edilə bilər. Cinayət-prosessual qanunvericilik ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müstəntiqin vəsatətdə göstərdiyi dəlillərlə razılaşmadığı hallarda "vəsatətin rədd edilməsi haqqında" qərar qəbul etmək hüququnu müəyyən etsə də, müstəntiqin həmin qərardan yuxarı prokurora ünvanlanmış etiraz imkanını müəyyən etməmişdir. Qanunun mənasına görə bu zaman müstəntiqin yeganə prosessual təminatı yeni dəlillər gətirməklə təkrar vəsatətlə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora müraciətdir. Bu isə müəyyən hallarda zəruri istintaq hərəkətlərinin vaxtında aparılmaması səbəbindən iş üzrə əhəmiyyət kəsb edən dəlillərin itməsinə səbəb ola bilər.

Odur ki, **ibtidai istintaqı aparan müstəntiqin prosessual imkanlarının genişləndirilməsi məqsədilə onun hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiqi üzrə icraatın başlanması barədə vəsatəti əsasında "vəsatətin rədd edilməsi haqqında" qərar qəbul etmiş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun müvafiq qərarından əsaslandırılmış etirazını yuxarı prokurora təqdim etmək hüququnu müəyyən edən normanın cinayət-prosessual qanunvericiliyə daxil edilməsi təklif olunur.**

5) Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 303.3.6-cı maddəsinə əsasən cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq həmin məcəllənin **289 və 290.3.2-ci** maddələrinin və ya **296.2-ci** maddəsinin tələblərinə uyğun

olmaması məhkəmənin hazırlıq iclası zamanı cinayət işinin baxılmasına xitam verilərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması üçün əsasdır. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsində hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq bir icraatda aparıldığı hallarda, cinayət işi üzrə tərtib edilmiş ittiham aktı üçün xarakterik tələblər müəyyən edilmişdir. Hesab edirik ki, müvafiq ittiham aktında həmin tələblərə riayət olunmaması, cinayət işinin məhkəmə tərəfindən baxılmasına xitam verilərək, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması üçün əsasdır. (Cinayət-Prosessual Məcəllənin 487-4.0.1-487-4.0.5-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatların ittiham aktında öz əksini tapmaması, yəni, hüquqi şəxsin adının, olduğu yerinin, təşkilati-hüquqi formasının, onun dövlət qeydiyyatını aparmış dövlət orqanının adının qeydiyyat tarixi və nömrəsinin ittiham aktında göstərilməməsi). Lakin göstərilən müddəa qanunvericilikdə bilavasitə öz əksini tapmamışdır. Bu baxımdan hesab edirik ki, subyektiv yanaşma hallarının qarşısının alınması məqsədilə qanunvericiliyə müvafiq dəyişikliyin edilməsi zəruridir.

Odur ki, **cinayət işi üzrə ittiham aktının və ya məhkəməyədək sadələşdirilmiş icraatın nəticələrinə dair yekun protokolunun müvafiq olaraq həmin məcəllənin 289 və 290.3.2-ci maddələrinin və ya 296.2-ci maddəsinin tələblərinə uyğun olmadığı hallarla yanaşı, ittiham aktının Cinayət-Prosessual Məcəlləsinin 487-6.2-ci maddəsi ilə müəyyən edilmiş tələblərə cavab vermədiyi hallarda da, məhkəmənin hazırlıq iclası zamanı cinayət işinin baxılmasına xitam verərək ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarmasını mümkün hesab edən normanın cinayət-prosessual qanunvericiliyə daxil edilməsi təklif olunur.**

6) Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsində 2019-2020-ci illər ərzində hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə aparılmış məhkəməyədək icraat materiallarının təhlili göstərir ki, hüquqi şəxslərin bir sıra hallarda "Vergi və Mühasibatlıq" MMC, "Dövlət-NTD" MMC, "Fakt Araşdırıcı-N" MMC kimi adlarla yaradılması, sonradan həmin hüquqi şəxslərin vəzifəli şəxslərinin özlərini dövlət orqanlarının əməkdaşları kimi təqdim etmələri, vətəndaşları və sahibkarları müxtəlif formada aldatmaları, onların hüquqlarını pozmaları hallarına rast gəlinir. Belə hesab edirik ki, bu cür halların qarşısının alınması məqsədilə hüquqi şəxslərin dövlət qeydiyyatına alınması zamanı onların adları ilə bağlı məsələlərə nəzarət edilməli, adlarında "dövlət, yoxlama, araşdırma, təhqiqat" kimi ifadələrdən istifadə olunmuş hüquqi şəxslərin hansı məqsədlə yaradılması, həyata keçirilməsini nəzərdə tutduğu fəaliyyəti araşdırılmalı, dövlət orqanlarının səlahiyyətlərini mənimsəmək məqsədilə, eləcə də, dövlət orqanlarının müstəsna səlahiyyətinə aid edilmiş funksiyaları həyata keçirmək məqsədilə yaradılması nəzərdə tutulmuş hüquqi şəxslərin dövlət qeydiyyatına alınmasına icazə verilməməlidir.

Odur ki, **dövlət orqanlarının səlahiyyətlərinin özbaşına mənimsənilərək vətəndaşların və xüsusilə də sahibkarların hüquqlarının pozulması hallarının qarşısının alınması məqsədilə hüquqi şəxslərin dövlət qeydiyyatına alınması zamanı onların adlarında "dövlət, yoxlama, araşdırma, təhqiqat, nəzarət, monitorinq" kimi ifadələrdən istifadə olunması müəyyən olunduğu hallarda, onların yaradılma məqsədinin araşdırılması, yalnız hüquqi şəxsin cinayətkar niyyətlə yaradılmaması qənaətinə gəlindikdə onun qeydiyyatına icazə verilməsi təklif olunur.**

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyası - United Nations Convention againist corruption
2. Avropa Şurasının "Korrupsiya ilə əlaqədar cinayət məsuliyyəti haqqında" Konvensiyası - United Nations Convention against corruption
3. Latviya Cinayət Məcəlləsi. Hüquqi şəxslər barəsində tətbiq olunan məcburiyyət tədbirləri. Criminal Law of Latvia. Chapter VIII1 Coercive Measures Applicable to Legal Persons
4. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi
5. "Liability of Legal Persons for Corruption in Eastern and Central Asia" OECD 2015
6. Clifford Chance "Corporate liability in Europe"
7. Azərbaycan Respublikasının Mülki Məcəlləsi
8. "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası qanunu
9. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi
10. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası qanunu
11. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi
12. "Cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə, cəzanın çəkilməmiş hissəsinidaha yüngül cəza növü ilə əvəz etmə, cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi və xəstəliyə görə cəzanı çəkməkdən azad etmə ilə bağlı məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 08.10.2010-cu il tarixli qərarı
13. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsi
14. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi